**Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

23 MAY 2020-ci il

№ 84 (4215)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AŞPA-da AZƏRBAYCAN ƏLEYHİNƏ PLAN - PANDEMİYADAN SONRA BƏYAN EDİLƏCƏK QƏTNAMƏNİN MƏTNİ DƏ HAZIRDIR

■ səh. 6 ■

Rayonlarımızda "su ədalətsizliyi" - Prezident bəzi başçıların hətta din qaydalarına da uyğun olmayan əməllərini açdı...

■ səh. 13 ■

Rayonlarda əsas işi həqiqətən Prezident həll edib, icra başçılarına qalan isə...

■ səh. 3 ■

Sahibkarları kənardan rayona cəlb etmək üçün başçılar nə etməlidir - Prezident tapşırığının asan üsulları var...

■ səh. 13 ■

Ermənistan savaşla bağlı son xəbərdarlıqlar qarşısında... İrəvan beynəlxalq ictimaiyyəti aldatma cəhdlərinin bumeranq effektini görməyə başlayır...

■ səh. 9 ■

Azərbaycan Türk dünyasını bir araya gətirən əsas dövlət mövqeyində... Üstəlik, Bakı-Tiflis-Qars...

■ səh. 10 ■

Paşinyan Rusiya-Ermənistan münasibətlərini tarixdə görünməmiş gərginliyə gətirdi - Parlament rəhbərlərinin qalmaqallı telefon söhbəti...

■ səh. 7 ■

Azərbaycan bunu da bacardı: erməni faşizminin dünya miqyasında ifşası başladı

■ səh. 12 ■

Paşinyan Şuşadakı çıxışında olmayan erməni dövlət adları quraşdırdı

■ səh. 11 ■



■ səh. 3 ■

## Prezidentdən icra başçılarına total ittiham - daşı daş üstünə qoymayıblar...






Rayonlarda rüşvətin kökünü kəsmək mümkündürmü - Prezident bütün rayonlar üçün aktual məsələni gündəmə gətirdi...

■ səh. 5 ■

Azərbaycanda sahibkarlar sinfi daha da güclənəcək, əgər icra başçıları imkan versə...

■ səh. 14 ■

Azərbaycan xalqı növbəti karantin sərtləşmələrindən yan keçə bilər... Daha bir həftəlik yoluxma piki arxada qaldı...

■ səh. 4 ■

■ səh. 8 ■

Ağstafa və İmişlinin yeni gənc icra başçıları çox ağır mirasın üstünə göndərildilər, onlara iki ən yaxşı uğur reseptini də Prezident özü göstərdi



■ səh. 5 ■

İcra başçılarının dövlət işində də, məişətdə də nümunə olması - Prezident nələri nəzərdə tutdu...



■ səh. 6 ■

İcra başçıları ictimai nəzarət mexanizminə lazımi önəm verə biləcəkmi...



■ səh. 7 ■

Tramp 34 dövlətin üzv olduğu beynəlxalq müqavilədən çıxdı - Avropa və Avroatlantika təhlükəsizliyi yeni şəraitdə...



■ səh. 15 ■

Mədəniyyət Nazirliyinin daha bir qəbahəti - deportasiya və soyqırım tarixi hələ ekranlaşdırılmayıb...



## Prezident İlham Əliyevlə "Signify" şirkətinin rəhbərləri arasında videokonfrans keçirilib

**Mayın 22-də "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və "Signify" rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

Videokonfransda Azərbaycan tərəfdən Prezidentin köməkçisi Natiq Əmirov iştirak edib.

## Göygölün icra başçısı vəzifəsindən azad edildi

**Prezident İlham Əliyev Arif Akif oğlu Seyidovun Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Arif Akif oğlu Seyidov Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

## Ağstafalı Aqrar Universitet tələbəsi Elcan Quliyevin Prezident Əliyevə məktubundan bir məqam... təhsilhaqqımın ödənilməsindəki dəstəyiniz...

**Aztəminatlı ailələrin övladlarının təhsilhaqqı xərclərinin dövlət hesabına ödənilməsi belə ailələrdən olan tələbələr tərəfindən təqdir edilir.**



Ağstafa rayonundan Azərbaycan Dövlət Aqrar Universitetinin tələbəsi Elcan Quliyev Prezident İlham Əliyevə yazdığı məktubda pandemiya dövründə vətəndaşların hərtərəfli qayğısına qaldığına görə Prezidentə təşəkkür edir. "Ölkəmizdə koronavirus pandemiyasının yayılmasının qarşısının alınması üçün tərəfinizdən görülən tədbirlər təqdirəlayiqdir. Virusun ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər üçün böyük məbləğdə vəsaitin ayrılması, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, sosial baxımdan həssas ailə qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsilhaqqı xərclərinin ödənilməsi ilə bağlı qərarın verilməsi bu məsələyə necə ciddi yanaşdığınızı göstərir...

Azərbaycan Dövlət Aqrar Universitetinin tələbəsi olaraq təhsilhaqqımın ödənilməsində göstərdiyiniz dəstəyə görə şəxsən öz adımdan və valideynlərimin adından Sizə minnətdarlığımı bildirirəm" - deyə Azərbaycan Dövlət Aqrar Universitetinin tələbəsi öz məktubunda bildirir.

*Baki-xeber.com*

## Azərbaycanda 106 nəfər koronavirusa yoluxdu, 59 nəfər sağaldı, 2 nəfər vəfat etdi

**Azərbaycanda 106 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**



Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1949 və 1962-ci il təvəllüdlü iki nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 3855 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2399 nəfər müalicə olunaraq sağalıb, 46 nəfər vəfat edib, 1410 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 48 nəfərin vəziyyəti ağır, 61 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 259.155 test aparılıb.

# Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi



**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

Təbrikdə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər Uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm.

Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!"

# Baş prokurorun yeni müavinləri kollektivə təqdim olundu

**Baş Prokurorluqda Mərkəzi Aparatın rəhbər heyətinin iştirakı ilə yeni təyin olunmuş Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini Elmar Camalov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov kollektivə təqdim edilib.**



Baş Prokurorluğun Mətbuat Xidmətinin məlumatına görə, tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi gündəlik diqqət və qayğıya görə təşəkkürünü bildirərək, prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rüstəm Usubov və Namiq Əsgərova "Əməkdar hüquqşünas" fəxri adının verilməsinin dövlət başçısı tərəfindən Azərbaycan Prokurorluğuna verilən yüksək qiymətin göstəricisi olduğunu xüsusi vurğulamaqla yeni təyin olunmuş şəxslərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə iştirak edən Rüstəm Usubov və Namiq Əsgərov fəaliyyətlərinə verilən yüksək qiymətə görə dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edib, xidmət illəri ərzində xalqa və dövlətə sədaqət prinsiplərini rəhbər tutduqlarını, vətənpərvərlik və peşəkarlıq irsinin daim uca tutulduğu prokurorluq orqanlarında xidmət etməkdən şərəf duymalarını ifadə ediblər.

Göstərilən yüksək etimada görə Elçin Məmmədov, Elmar Camalov və Nazim Rəcəbov dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edərək fəaliyyətlərində şəffaflıq və dürüstlük prinsiplərinin daim uca tutacaqlarını diqqətə çatdırıblar.

# Prezidentdən icra başçılarına total ittiham - daşı daş üstünə qoymayıblar...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Seymur Orucovu Ağstafa, Elçin Rzayevi isə İmişli rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib. Ölkə başçısı gənc icra başçılarını təşəbbüskar olmağa, rayona investisiya cəlb etməyə çağırıb:**



## *Asif İbrahimov: "Məmur vəzifəyə varlanmaq üsulu kimi yox, xalqa xidmət platforması kimi baxmalıdır"*

"Sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki, açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb".

Prezident bildirib ki, son 17 il ərzində 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı, demək olar ki, yenidən qurulub:"Biz qazlaşdırmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz mənim bilavasitə göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər, hansı daşı daş üstünə qoyublar. İndi bütün bu işlər təftiş edilir. Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yeni qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ki, ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulub. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Deməli, insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcək. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır".

Göründüyü kimi, ölkə başçısı bütün icra qurumlarının ünvanına kəskin irad bildirib və onların rayonların inkişafı üçün heç bir təşəbbüs göstərmədiklərini nəzərə çatdırıb, əksər işlərin məhz onun təşəbbüsü ilə görüldüyünü deyib. İcra başçılarının indiyə qədər bu istiqamətdəki yarıtmaz fəaliyyəti nə ilə bağlı olub?

İqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezidentin bu iradı tamamilə haqlıdır:"Hələ icra başçıları korpusunda həbslərin başlanmasından əvvəl Prezident keçirdiyi müşavirələrdə bir neçə dəfə rayonlara investisiya cəlbinin zəruriliyindən danışdı. Hətta bu xüsusda icra başçılarına xaricdən investisiya cəlbi üçün yaşıl işığın yandırıldığını da dedi. Araşdırın görün, heç bu addımı atan icra başçısı olubmu? Bizim əksər rayonlarımızın gözəl və cəlbedici imkanları var. Sadəcə, bu istiqamətdə səylər göstərmək lazımdır. Ancaq bizim icra başçıları çox asan fəaliyyət növü tapmışdılar. Reallaşan həbslərdən görünür ki, onların iş prinsipləri necə də bir-birinə bənzəyir. Demək olar ki, əksəriyyəti büdcə pullarının eyni ssenari ilə talanmasını həyata keçirib. Hətta Prezidentin abadlıq üçün ayırdığı pulları da müxtəlif vasitələrlə talayıblar.

Rayon icra hakimiyyəti başçılarının abadlıq adı ilə sahibkarlardan pul toplaması halı çox yaşanıb. Yolların təmiri, üzlənməsi, şəhər daxilində müxtəlif formatlı mağazaların açılması kimi faktlar, demək olar ki, hər bir rayonda qeydə alınıb. Bu kimi işlərin görülməsi üçün icra başçıları vaxtaşırı kiçik və orta sahibkarlardan müxtəlif məbləğdə vəsait alırdılar. 15-20 il iş təcrübəsi olan icra başçılarının, demək olar ki, hamısı eyni ssenari üzrə korrupsiya hallarını həyata keçirib. Bütün rayonlarda icra başçılarının mülkləri, biznesləri haqqında geniş informasiya əldə etmək elə də çətin deyil.

Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün dövlət tərəfindən hər bir şərait yaradılır. Lakin bəzi məmurlar və icra başçıları sahibkarlığın inkişafına şərait yaratmaq əvəzinə, onlara müəyyən çətinlik yaradırlar. Prezident çıxışı zamanı düz buyurur ki, bəzi icra başçıları abadlıq adı ilə müəyyən məbləğdə vəsaiti oğurlayıblar. Axı həmin rayonda abadlığın aparılması üçün dövlət tərəfindən vəsait ayrıldığı təqdirdə icra başçısı niyə sahibkardan əlavə pul alır? Artıq icra qurumlarının fəaliyyətində yeni yanaşma ortaya qoyulmalıdır. Məmur vəzifəyə varlanmaq üsulu kimi yox, xalqa xidmət platforması kimi baxmalıdır. Bu yanaşma ortaya qoyulsa, dəyişikliyin şahidi olarıq. Əgər yeni kadrlara dövlət hər cür şərait yaradırsa, faydalı iş əmsalı ortaya qoymaq onların borcudur".

***Məhəmmədəli QƏRİBLİ***

# Rayonlarda əsas işi həqiqətən Prezident həll edib, icra başçılarına qalan isə...

**Prezident İlham Əliyev Ağstafa və İmişli rayonlarına yeni təyin olunan icra başçılarını videoformatda qəbul edərkən bildirdi ki, infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Ona görə də icra başçılarının əsas vəzifəsi rayonların sosial-iqtisadi inkişafını təmin etməkdən ibarət olmalıdır: "Üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələrinin böyük hissəsi öz həllini tapıb.**



## *Aydın Hüseynov: "Bütün bu işlər kompleks şəkildə görülməlidir"*

Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda, beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulan investisiyalardır. Ona görə infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Ona görə sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, artıq bu möhkəm təməl üzərində öz işinizlə rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz".

Prezident onu da qeyd edib ki, bütün işlər ədalətli görülməlidir: "Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə, ilk növbədə, bunu icra başçıları, icra strukturları etməlidirlər".

Həqiqətən də ötən illər ərzində dövlət büdcəsi hesabına rayonların infrastruktur problemi öz həllini tapıb. İndi əsas məsələ rayonların sosial-iqtisadi inkişafını təmin etməkdir ki, bu da icra başçılarının fəaliyyətindən asılı olan məsələdir.

*"Onların problemlərinin həllinin optimal yollarını..."*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, icra başçıları rayonların sosial-iqtisadi inkişafını təmin etmək üçün səylərini artırmalıdırlar: "Ötən illər ərzində regionların sosial-iqtisadi inkişafı ilə bağlı bir neçə Dövlət Proqramı qəbul olunub. Sözügedən proqramlar sayəsində regionlarda çox böyük infrastruktur layihələri həyata keçirilib. Yeni yollar çəkilib, əvvəlki yollar yenidən qurulub. Elektrik və su təchizatı yaxşılaşdırılıb. Məktəblər, xəstəxanalar, mədəniyyət evləri yenilənib. İdman kompleksləri tikilib. Digər bu kimi çox böyük tədbirlər həyata keçirilib. İndi hər bir icra başçısının ən böyük vəzifəsi ondan ibarətdir ki, vətəndaşların qayğısına qalsın. Onların problemlərinin həllinin optimal yollarını müəyyənləşdirsin. Mövcud imkanlardan səmərəli istifadə edərək rayonun sosial-iqtisadi inkişafını təmin etsin. İkinci bir tərəfdən, cari işlər və problemlər var. İcra başçıları sözügedən problemlərin həlli ilə də bağlı səylərini artırmalıdırlar. Bütün bu işlər kompleks şəkildə görülməlidir".

***Vidadi ORDAHALLI***

# Azərbaycan xalqı növbəti karantin sərtləşmələrindən yan keçə bilər... Daha bir həftəlik yoluxma piki arxada qaldı...

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla bağlı KİV nümayəndələri üçün brifinq keçirib. "Trend"in məlumatına görə, brifinqdə Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı iştirak edib.**

**Tibb işçiləri arasında 681 yoluxma…**

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı bildirib ki, respublika üzrə ümumən tibb işçiləri arasında 681 nəfərdə yoluxma halı qeydə alınıb. Onun sözlərinə görə, Operativ Qərargah ötən həftə ərzində pandemiya ilə mübarizə istiqamətində əks-epidemik tədbirlərini davam etdirib, müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

R.Bayramlı qeyd edib ki, bu gün 106 nəfərdə koronavirusa yeni yoluxma faktı aşkar edilib. Ümumilikdə bu günədək 3855 yoluxma faktı olub. Sağalan 2 399 nəfətr sağalaraq evə göndərilib.

R.Bayramlı bildirib ki, bu, ümumi yoluxma hallarının 18 faizini təşkil edib. Əksəriyyət tibb və orta işçiləri olub. Tibb 537 nəfər tibb işçisi sağalıb, digərlərinin müalicəsi davam edir. Tibb işçilərindən 4 nəfər ölüb.

**Karantin rejimini sərtləşdirməyə əsas yoxdur**

İbrahim Məmmədov isə deyib ki, Operativ Qərargah ölkədə sanitar-epidemioloji vəziyyəti yenidən təhlil edib, yaranmış situasiya karantin rejimində sərtləşməyə əsas vermir. Onun sözlərinə görə, bəzi ölkələrdə vəziyyət gərgin olsa da, Azərbaycanda elə deyil: "Bizdə vəziyyət o qədər də gərgin deyil. Vəziyyət sabit olmasa da, idarəolunandır. Yaranmış vəziyyətin daha da yumşaldılmasına ehtiyac görülmür. Yəni Operativ Qərargahın apardığı təhlillərə əsasən, ölkədə karantin qaydalarının yumşaldılması məqbul sayılmır. Vəziyyət olduğu kimi qalır. Yaxın günlərdə bu barədə Operativ Qərargahın qərarı olacaq".

**Ötən həftə yoluxma hallarında pik dövr yaşanıb**

R.Bayramlı bildirib ki, ötən həftə yoluxma hallarının pik dövrü yaşanıb. Onun sözlərinə görə, son həftə ərzində mayın 16-da 158 nəfərdə yoluxma halı qeydə alınmaqla, pik dövr yaşanıb: "Ötən həftə 755 nəfərdə yoluxma halı olub. Bu həftə isə 581 nəfərdə yoluxma aşkar edilib. Biz hələ də yoluxma hallarının intensivliyinin yüksək olduğunu görürük".

R.Bayramlı qeyd edib ki, qətiyyən arxayınlaşmaq olmaz. Qoyulan qaydalar əməl edilməlidir: "Həftənin digər günləri ilə müqayisədə dalğalanmalar olub. Ona görə də vəziyyətin sabitliyi haqqında tam fikir söyləmək olmaz. Növbəti həftədə sağalanların sayının daha çox olacağını gözləyirik".

**Kütləvi tədbirlər və toylar gələn ay da olmayacaq**

R.Bayramlı qeyd edib ki, iyunda kütləvi tədbirlərin, o cümlədən toyların keçirilməsi məqsədəuyğun deyil. Onun sözlərinə görə, iyun ayında belə tədbirləri keçirmək tövsiyə edilmir: "Amma iyunun 1-dən böyük ticarət mərkəzlərinin açılması barədə qərar qəbul edilə bilər. Çimərliklərin açılmasında da bir problem görmürük. Çimərlik sahələrində ən önəmli məsələ sosial məsafənin gözlənilməsidir".

**Vəfat edənlər arasında 40-49 yaşlı şəxslərin sayı artıb**

R.Bayramlı pandemiyadan vəfat edənlər arasında 40-49 yaşlı şəxslərin sayının artdığını deyib. Onun sözlərinə görə, bütün rəqəmlər onu göstərir ki, ölkəmizdə epidemioloji vəziyyət nəzarət altındadır: "Əks-epidemik tədbirlər öz bəhrəsini verməyə davam edir. Amma vətəndaşlar da bu işə öz töhfəsini verməlidir".

**Ağırlaşma və ölüm hallarının səbəbi…**

TƏBİB sədri ağırlaşma və ölüm hallarının çoxunun evdə özünü müalicə ilə bağlı olduğunu deyib. Onun sözlərinə görə, son zamanlar COVİD-19-a oxşar digər hallar da müşahidə edilir: "Bu hallar bizi narahat edir. Bütün halları araşdırmaq lazımdır ki, bu koronavirusdur, ya başqa ağırlaşmalardır".

R.Bayramlı qeyd edib ki, ölkəyə xaricdən gələnlər arasında yoluxma halları 20 faiz təşkil edib:"Bir təyyarə reysində gələnlər arasında yoluxma göstəricisi 30 faiz olub. Bu halda bütün təyyarə ekipajı karantinə göndərilir".

**Beynəlxalq uçuşlar gələn ay bərpa oluna bilər…**

R.Bayramlı qeyd edib ki, yaxın günlərdə uçuşların bərpası və sərhədlərin açılması gözlənilmir. Onun sözlərinə görə, beynəlxalq uçuşların açılması müzakirə edilir:"Burada bir sıra məsələlər nəzərə alınır. İyunun 15-dən bəlkə də bu, mümkün olar. Yaxın coğrafi əlaqələri olan ölkələrlə uçuşları bərpa etmək olar".

"Bayram süfrələrinin təşkilini qətiyyən tövsiyə etmirik" - deyən R.Bayramlının sözlərinə görə, yoluxma sürəti atarsa, yenidən sərt karantin rejiminə gedilə bilər: "Azərbaycan təkrar sərt karantin tədbirləri tətbiq edən ölkələrin təcrübəsini yaşamaq istəmir. Epidemioloji vəziyyət dəyişərsə, gələn həftə yenidən qısamüddətli qadağalar tətbiq edilə bilər. Bayram günlərində ölkəmizdə küçəyə çıxma qağadası qoyulmayıb. Bu günlərdə evə yaxın ərazidəki parklarda sosial məsafəni gözləməklə getmək olar. Amma bayram süfrələrinin təşkilini qətiyyən tövsiyə etmirik".

R.Bayramlı qeyd edib ki, qaydalara əməl etməyən müəssisələr və və fiziki şəxslər sərt şəkildə cərimələnə bilər.

**İş yerlərində sosial qaydalara əməl etməmək yoluxma hallarını artırır**

TƏBİB sədri qeyd edib ki, iş yerlərində sosial qaydalara əməl etməmək, maska taxmamaq yoluxma hallarının artmasına səbəb olub. R.Bayramlı bildirib ki, istər özəl, istərsə də dövlət qrumlarında hər hansı bir şəxsdə koronavirus infeksiyası aşkarlanarsa, həmin qurumların onunla təmasda olan bütün əməkdaşlarından test götürülür və pozitiv çıxdığı halda onlar dövlət hesabına müalicə olunurlar.




ATV kanalında yoluxma halına münasibət bildirən R.Bayramlı qeyd edib ki, kanalın 3 əməkdaşında yoluxma faktı qeydə alınıb:"Onlarla yaxın təmasda olan digər insanlardan testlər götürülüb və bu günlərdə testlərin cavabları bildiriləcək".

**İri ticarət mərkəzlərinin açılması gündəmdə...**

R.Bayramlı iyun ayında iri ticarət mərkəzlərinin açılmasının da gündəmdə olduğunu deyib: "Əgər göstəricilər stabil olsa, bununla bağlı qərar qəbul edilə bilər".

Onun sözlərinə görə, iyunun 1-dən sonra idman zallarının açılması ilə də bağlı qərar verilə bilər. Hazırda idman tədbirlərinin keçirilməsinə icazənin verilməsi də gündəmdədir.

R.Bayramlı bununla bağlı müvafiq qərarın veriləcəyinə əminliyini də bildirib.

**10 mindən artıq vətəndaş dövlət hesabına Azərbaycana gətirilib**

İ.Məmmədov isə bildirib ki, pandemiya dövründə 10 mindən artıq vətəndaşın Azərbaycana gətirilməsi dövlət hesabına həyata keçirilib. Onun sözlərinə görə, bundan sonra ölkəyə gətirilənlər öz hesablarına gələcəklər: "Çünki bu proses sona qədər dövlət hesabına aparıla bilməz. Bu vaxta qədər dövlət vətəndaşların ölkəyə gətirilməsi üçün bütün şəraiti yaradıb".

# Rayonlarda rüşvətin kökünü kəsmək mümkündürmü - Prezident bütün rayonlar üçün aktual məsələni gündəmə gətirdi...

**Prezident İlham Əliyev Ağstafa və İmişli rayonlarına yeni təyin olunan icra başçılarını videoformatda qəbul edərkən Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizənin amansız aparılmasının vacibliyini bildirib:**

"Mən sizi bu gün Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçısı vəzifələrinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız. Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq-mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu bir daha onu göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaq. Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın".

Göründüyü kimi, ölkə başçısı gənc başçılara təyin edildikləri rayonlarda rüşvət və korrupsiyanın kökünü kəsməyi tapşırığını verib. Buna nail olmaq mümkündürmü?

İcra qurumlarında böyük iş təcrübəsi olan "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, rüşvət və korrupsiya qədim zamanlardan mövcuddur və dünyanın bütün ölkələrini əhatə edir:"Neqativ proses kimi bu bəla bütün ölkələrin inkişafını əngəlləyir. Görürük ki, son dönəmdə ölkəmizdə bu bəla ilə bağlı daha sərt addımlar atılır. Həyata keçirilən məmur həbsləri buna misaldır. Cənab Prezident yeni icra başçılarının qarşısında bu vacib tələbi qoydu ki, maksimum dərəcədə rüşvətin qarşısını alsınlar. Təəssüflər olsun ki, biz bəzən məhz icra başçılarının özünün də rüşvətə qurşandığının şahidi oluruq. Onlar nəinki özləri rüşvət almamalıdır, eləcə də rəhbərlik etdikləri rayonda bunun qarşısının alınmasına çalışmalıdırlar. Başa düşürəm ki, bu problemi bir rayon çərçivəsində tam lokallaşdırmaq mümkün deyil. Gördünüz ki, biz pandemiya ilə necə mübarizə apardıq. Yeri gələndə, rüşvət də həmin virusdan geri qalmayan bir xəstəlik, epidemiya növüdür. Ölkə başçısı bu sahədə ardıcıl mübarizəyə start verib. Görünən budur ki, ölkə başının qarşısına qoyduğu məqsəd bu bəlanın sonuna çatmaqdır və bu mübarizədə geriyə addımın olmadığı əzmkarlığı nümayiş edilir. Cənab Prezidentə bu məsələdə ictimai dəstək də güclü olmalıdır. Təsadüfi deyil ki, ölkə başçısı sonuncu qəbulda da icra başçılarına korrupsiya ilə mübarizə sahəsində ictimai nəzarət amillərinin gücləndirilməsinin vacibliyini bildirdi. Təbiidir ki, bu prosesdə ən başlıca rolu Prezidentin yerlərə təyin etdiyi icra başçıları oynamalıdır. Cənab Prezidentin təyin etdiyi yeni kadrlar bu sahədə cəmiyyətə nümunə olmalıdır. Bu elə beladır ki, nəticələr tədricən mümkün olur. Rüşvətin tam kökünü kəsmək üçün, qanunların əlahiddəliyindən öncə, məktəblərin məbəd olması gərəkdir. Çalışmalıyıq ki, bu bəla ilə biz məktəblərdən başlayaraq mübarizə aparaq. Çünki bizim vətəndaşlarımızın ilk dərs və tərbiyə aldığı yer məhz məktəbdir. Onda insanlarımız saf və nəfsinə hakim olacaq".

***Rasim Quliyev:** "Cənab Prezidentin təyin etdiyi yeni kadrlar bu sahədə cəmiyyətə nümunə olmalıdır"*



***Məhəmmədəli QƏRİBLİ***

# İcra başçılarının dövlət işində də, məişətdə də nümunə olması - Prezident nələri nəzərdə tutdu...

**"Əgər icra başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı oğurlayır, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər?!".**



***Elçin Mirzəbəyli:** "...onların davranışları ictimaiyyət tərəfindən nümunə kimi qəbul olunmalıdır"*

Bu fikirləri Prezident İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda keçirdiyi qəbulda deyib.

Pezident qeyd edib ki, siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar: "İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin".

Maraqlıdır, dövlət başçısı icra başçılarına işdə və məişətdə nümunə olmalısınız deyəndə nəyi nəzərdə tutub?

*"İcra başçıları öz işlərinə nə qədər vicdanla yanaşarlarsa, eyni zamanda, sadə insanlara münasibətdə yüksək mədəniyyət nümayiş etdirərlərsə..."*

Siyasi ekspert Elçin Mirzəbəyli qeyd etdi ki, icra başçıları dövləti təmsil edən şəxslərdir. Onların davranışları ictimaiyyət tərəfindən nümunə kimi qəbul olunmalıdır: "Onlar öz işlərinə nə qədər vicdanla yanaşarlarsa, eyni zamanda, sadə insanlara münasibətdə yüksək mədəniyyət nümayiş etdirərlərsə, bu, dövlət tərəfindən cəmiyyətə verilən mesaj kimi qəbul olunacaq. Hesab edirəm ki, bununla bağlı ölkəmizdə kifayət qədər nümunə var. İlk olaraq bildirim ki, cənab Prezident və Birinci vitse-prezidentin şəxsində onların insanlarla münasibəti, qayğısı bütün məmurlara örnək olmalıdır. İcra strukturlarında təmsil olunanlar, həmçinin, icra başçıları da bu hallardan özləri üçün nümunə götürməlidirlər. Daha sonra onlar davranışları ilə cəmiyyətə örnək olmalıdırlar".

***Günel CƏLİLOVA***

**Azərbaycana yönəlik növbəti qərəzli kampaniyaya start verilib. Bu dəfə əvvəlkilərdən fərqli olaraq təhdid xarakterli mesajlar verilir. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Sunna Evarsdottir bəyan edib ki, karantin bitəndən sonra beynəlxalq qurumların Azərbaycanda insan haqlarının durumu ilə bağlı hesabatları tənqidi olacaq.**

# AŞPA-da Azərbaycan əleyhinə plan - Pandemiyadan sonra bəyan ediləcək qətnamənin mətni də hazırdır



***Məhərrəm Zülfüqarlı:** "Bu təhdid xarakterli qərəzli kampaniya ölkənin müstəqil siyasət yeritməsi ilə bağlıdır"*

Guya Azərbaycanda tənqidi səslərə qarşı repressiyalar davam edir: "Azərbaycan da, başqa ölkələr kimi, karantindədir və ölkədə baş verənlərlə bağlı informasiya əldə etmək və xəbərləri təsdiqlətmək çətindir. Amma bu şərtlər daimi deyil. Sərhədlər açılanda və Avropa Şurası yenidən tam gücü ilə fəaliyyətə başlayanda qiymətləndirmə aparacaq və bu qiymət də tənqidi olacaq. Müəyyənləşdirəcəyik ki, pandemiyadan hansı hallarda öz avtoritar oyunlarına meydan vermək və siyasi maraqlarını həyata keçirmək üçün sui-istifadə olundu. Karantin bitəndə bunların hamısı öz əksini tapacaq və tənqid olunacaq".

S.Evarsdottir iddia edib ki, guya Azərbaycanda tənqidi səslərə qarşı repressiyalar davam edir. Guya karantin dövründə Azərbaycanda 15-ə qədər müxalifət fəalı və jurnalist həbs olunub. S.Evarsdottir, həmçinin, bildirib ki, bütün siyasi məhbuslar azadlığa buraxılmalıdır. Ona görə, təhlükəsiz mühitdə yaşamaq bütün məhbusların fundamental haqqıdır.

Göründüyü kimi, bəzi beynəlxalq təşkilatların Azərbaycanla bağlı hesabatları azmış kimi, indi də təhdid formasında danışırlar. Bu isə beynəlxalq hüquqa uyğun olmayan bir yanaşmadır.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri, tarix üzrə elmlər doktoru Məhərrəm Zülfüqarlının sözlərinə görə, Azərbaycana yönəlik bu təhdid xarakterli qərəzli kampaniya ölkənin müstəqil siyasət yeritməsi ilə bağlıdır: "Bütün bunlarda əsas məqsəd Azərbaycanın yeritdiyi müstəqil balanslaşdırılmış siyasətdən çəkindirməkdir. Bilavasitə ölkəni Qərbin istədiyi istiqamətə yönəltmək istəyirlər. Bu da Azərbaycan üçün heç bir əhəmiyyət daşımır. Çünki Azərbaycan şimalda Rusiya, cənubda İranla qonşudur. Azərbaycan Rusiya və İrana yönəlik embarqoları müdafiə etmir. Bu səbəbdən ölkəmizə yönəlik bu cür qərəzli kampaniya aparılır. Belə kampaniyada iştirak edən qurumlardan biri də AŞPA-dır. Adətən, bu qurumlar seçkidən sonra qarayaxma kampaniyasına start verirlər. Pandemiya səbəbindən onların bir sıra planları baş tutmadı. Ona görə də indi hədələyici tonda bəyanatlar verirlər. AŞPA-nın siyasi məhbuslar üzrə məruzəçisinin fikirləri də bundan qaynaqlanır. Olmayan şeyləri uydururlar. Guya Azərbaycan hakimiyyəti pandemiyadan sui-istifadə edərək siyasi təqiblər aparır. Görünən odur ki, yenə də Azərbaycandan nəsə qoparmaq üçün ölkəmizə qarşı təzyiq mexanizmini işə salıblar. Hesab edirəm ki, bu kimi kampaniyanın heç bir əhəmiyyəti olmayacaq. Azərbaycan öz müstəqil siyasi xəttini davam etdirəcək".

*"AŞPA-nın siyasi məhbuslar üzrə məruzəçisinin fikirləri də bundan qaynaqlanır"*

***Vidadi ORDAHALLI***

**"Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır.**

# İcra başçıları ictimai nəzarət mexanizminə lazımi önəm verə biləcəkmi...




***Rauf Zeyni:** "...ictimai nəzarətlə bağlı vəziyyəti tam olaraq dəyərləndirməlidir"*

Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz...".

Bu fikirləri Prezident İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən bildirib.

İcra başçıları ictimai nəzarət mexanizminə lazımi önəm verə biləcəkmi?

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi islahatlar davam edir və davam edəcək də, vətəndaş cəmiyyəti də bu islahatlara öz töhfəsini verir. "Əlbəttə, biz daha geniş iştirak etmək istəyirik. Cənab Prezident hər dəfə yeni kadrlar təyin edərkən və onları qəbul edib tövsiyələrini verərkən həmişə ictimai nəzarət məsələsinə xüsusilə toxunur. Prezident Ağstafa və İmişlinin yeni təyin etdiyi icra başçılarını vidoformatda qəbul edərkən də bir daha islahatlar məsələsinə toxundu, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizənin çox vacibliyini və bu kimi neqativ halların kökünün kəsilməli olduğunu bildirdi. Həmçinin də bu kimi hallarla mübarizədə ictimai nəzarətin gücləndirilməsini çox vacib amil olaraq qiymətləndirdi. Bu da vətəndaş cəmiyyəti təmsilçiləri, ictimaiyyətin üzvü olaraq bizim üzərimizə çox böyük vəzifələr qoyur. Biz də öz işimizi elə qurmalıyıq ki, ölkədə qanunlar çərçivəsində geniş ictimai nəzarəti həyata keçirə bilək. Qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti bu istiqamətlərdə şəffaflığın təmin olunmasında, monitorinqlərin aparılmasında daha geniş səviyyədə iştirak etməlidir, edir də. Biz gərək bütün imkanlardan istifadə edib bütün potensialımızı bu məsələ ilə bağlı səfərbər edək ki, ölkə başçısının apardığı islahatlara ictimai dəstək verə bilək".

R.Zeyninin fikrincə, ölkə başçısının etdiyi çağırışlar, verdiyi göstərişlər bütün yerli və mərkəzi icra hakimiyyəti orqanlarına əsas göstəriş hesab olunmalıdır: "Mərkəzi və yerli icra hakimiyyəti orqanları həm qanunlarımıza, həm də Prezidentin çağırışlarına və tapşırıqlarına uyğun olaraq ictimai nəzarətlə bağlı vəziyyəti tam olaraq dəyərləndirməlidir. Hansı icra hakimiyyəti orqanı indiyə qədər ictimai şura yaratmayıbsa, onlar ictimai şuralar yaratmalıdırlar. Bütövlükdə, korrupsiyaya qarşı mübarizə ilə əlaqədar olaraq icra orqanları ilə qeyri-hökumət təşkilatlarının əməkdaşlığının yeni mərhələsi başlanmalıdır. Düşünürəm ki, bu il bu sahədə həm "Könüllülər ili" çərçivəsində, həm də ictimai nəzarətin gücləndirilməsi, şəffaflığın artırılması, birgə monitorinqlərin həyata keçirilməsi, ölkədə şəffaflığın təmin olunması ilə bağlı çox böyük irəliləyişlər gözlənir. Bu da mütləq baş verməlidir. Çünki bu, bilavasitə ölkə başçısının tapşırığıdır. Bununla əlaqədar olaraq yerli və mərkəzi icra hakimiyyəti orqanlarına nə kimi dəstək vermək lazımdırsa, Milli Qeyri-Hökumət Təşkilatları Forumu olaraq əlimizdən gələni etməyə hazırıq".

*"Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar olaraq icra orqanları ilə qeyri-hökumət təşkilatlarının əməkdaşlığının yeni mərhələsi başlanmalıdır"*

***İradə SARIYEVA***

**Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) təcili toplanacağı gözlənilir. Xarici medianın verdiyi məlumata görə, bu qərar ABŞ Prezidenti Donald Trampın "Açıq Səma Müqaviləsi"ndən çıxmaq qərarını elan etməsindən sonra verilib.**



# Tramp 34 dövlətin üzv olduğu beynəlxalq müqavilədən çıxdı - Avropa və Avroatlantika təhlükəsizliyi yeni şəraitdə...

***Yeganə Hacıyeva:** "Sazişdən imtina ABŞ-ın özünün müəllifi olduğu və ona artıq yük olan beynəlxalq təhlükəsizlik sisteminin demontaj edilməsidir"*

Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova açıqlamasında rəsmi Moskvanın Vaşinqtondan bu qərarın izahatını gözlədiyini bildirib. Xatırladaq ki, Tramp "Açıq Səma Müqaviləsi"ndən Rusiyanın öhdəliklərini yerinə yetirmədiyini əsas gətirərək çıxacaqlarını bəyan etmişdi. O, eyni zamanda, ölkələrin yeni sazişin bağlanması üçün bir araya gələcəklərinə ümid etdiyini bildirmişdi. Qeyd edək ki, 1992-ci ildə ATƏT-ə üzv olan 27 dövlət "Açıq Hava Sahəsi Müqaviləsi"ni imzalayıb. Müqavilə Soyuq Müharibədən sonra Avropada etimad tədbirlərindən birinə çevrilib. Rusiya isə bu müqaviləni 2001-ci ilin mayında təsdiqləyib. Ümumilikdə müqaviləni 34 dövlət təsdiq edib.

Trampın bu addımı hansı nəticələrə səbəb ola bilər və bu. NATO-nun dağılması ilə nəticələnə bilərmi? Bundan sonra Avropanın təhlükəsizliyi hansı səviyyədə olacaq?

Politoloq Yeganə Hacıyeva qəzetimizə açıqlamasında bildirdi ki, Trampın NATO "Açıq Səma" müqaviləsindən çıxması təşəbbüsünə ABŞ-ın son illər ardıcıl olaraq yürütdüyü həm adi, həm də nüvə silahının məhdudlaşdırılmasına yönəlik mövcud müqavilələr sisteminin ləğvinə hesablanmış xəttin davamı olaraq baxmaq lazımdır: "ABŞ-ın bir il öncə qlobal tərksilah sahəsində müqavilələrin ləğvi və ya müddətinin uzadılmaması haqqında təşəbbüsləri də bu qəbildən olan addımlardır. 1963-cü ildə Böyük Britaniya, ABŞ və SSRİ arasında bağlanmış müqavilə nüvə silahının atmosferdə, kosmik fəzada və suyun altında sınağının qadağan olunması barədə razılaşma idi.

"Acıq Səma" müqaviləsi isə ABŞ eks prezidentləri D.Eyzenhauer tərəfindən irəli sürülüb və ata C.Buş tərəfindən həyata keçirilib, "oyuq müharibə"dən sonrakı dövrdə Avropada qarşılıqlı inamın qurulmasını nəzərdə tuturdu. Müqaviləni imzalayan dövlətlər arasında NATO üzvlərinin əksəriyyəti - Rusiya, Belarus, Ukrayna, Gürcüstan, Bosniya və Herseqovina, İsveç və Finlandiya var. 2002-ci ildən qüvvəyə minən müqavilə onu imzalayan dövlətlərin bir-birinin hərbi qüvvələri və fəaliyyətlərinə dair sərbəst məlumat toplamasına imkan yaradır. İndi isə ABŞ potensial rəqiblərdən, xüsusən də Rusiyadan kəşfiyyat məlumatları əldə etməyə kömək edən onilliklər boyu bağlanmış müqaviləni tərk etmək niyyətindədir".

Politoloqun sözlərinə görə, ABŞ-ın "Açıq Səma" müqaviləsindən çıxmasını təkcə Avropa, NATO və ya Rusiya ilə hesablaşma kimi deyil, qlobal stabilliyə xidmət edən beynəlxalq təhlükəsizlik sistemindən kənarlaşma kimi də qəbul etmək lazımdır:"Çünki "Açıq səma" müqaviləsi təkcə hərbi məqsədlər deyil, həm də mülki aviasiyanın təhlükəsizliyinə təminat verən, aviadaşımalar bazarının liberallaşdırılmasını tənzimləyən bir müqavilədir və mülki aviasiya sahəsində məhdudiyyətləri aradan qaldırmışdı. Düzdür, bunu da qeyd etmək lazımdır ki, bu məhdudiyyətlərin aradan qaldırılması həm də "qara daşınmalar"da mülki aviasiyanın istifadəsini bir az asanlaşdırmışdı. Burda onu da qeyd edim ki, "Açıq Səma" müqaviləsindən çıxmağı sırf Trampın öz təşəbbüsü kimi qəbul etmək doğru deyil. Çünki iki il öncə ABŞ konqresində belə fikirlər səslənmişdi. Buna səbəb isə Rusiyanın "Açıq səma" seriyasından iki yeni təyyarənin avadanlığına sertifikat verməli xahişi olmuşdu. ABŞ konqresində bu təşəbbüs "casusluq və milli maraqlara zərərli" kimi qiymətləndirilmişdi. Onu da qeyd etmək lazımdır ki, ABŞ son onillikdə bu sazişin üzvü digər dövlətlərlə ikitərəfli münasibətlərdə "Açıq Səma" Sazişi imzalanması prosesini aparırdı. Bu proses artıq yekunlaşıb və o sazişin daşıdığı bütün funksiyalar, bir-iki dövləti çıxmaq şərtilə, digərləri ilə təmin olunub.

Bir sözlə, ABŞ NATO üzrə tərəfdaşlarından məlumat almaq imkanlarını saxlayaraq, öz ərazisinə Rusiyanın nəzarət etmə imkanını aradan qaldırır. Düzdür, peyklərin köməyilə uçuş zamanı alınan məlumatın bir hissəsini əldə etmək mümkündür. Rusiya və ABŞ arasında yeganə qüvvədə olan silahların məhdudlaşdırılması razılaşması "Strateji hücum silahlarının ixtisar edilməsi" barədə müqavilədir. Sazişdən imtina isə ABŞ-ın özünün müəllifi olduğu və ona artıq yük olan beynəlxalq təhlükəsizlik sisteminin demontaj edilməsidir ki, Trampın gəlişi ilə biz bu prosesin sürətlənməsinin şahidi olduq. Bu halda isə Avropanın təhlükəsizliyinin inşası və kənar hədələrə qarşı özünümüdafiə prosesi güclənəcək ki, bu təşəbbüslər Avropanın da, ABŞ-ın da prioritetləri sırasındadır. Bu qərarın NATO-nun parçalanmasına gətirib çıxaracağı heç də inandırıcı sayılmır".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Erməni mediası yazır ki, İrəvanda Rusiya hakimiyyətinə inamsızlıq artır, münasibətlər getdikcə mürəkkəbləşir. Bununla bağlı bir sıra faktlar vəziyyətin son dərəcə ciddi olmasından xəbər verir.**



# Paşinyan Rusiya-Ermənistan münasibətlərini tarixdə görünməmiş gərginliyə gətirdi - Parlament rəhbərlərinin qalmaqallı telefon söhbəti...

***Məhəmməd Əsədullazadə:** "Ermənistan daxilində Rusiyaya qarşı əks-təbliğata Paşinyan rəhbərlik edir"*

Bu barədə Ermənistanın "Fakt"qəzetində bir sıra məqamlara toxunulub.

Nəşrin bildirdiyinə görə, əslində, son iki ildə Ermənistan-Rusiya münasibətləri, yumşaq desək, qeyri-müəyyəndir. Bununla bağlı konkret bir sıra faktlar göstərilib: "İndi həm Xarici İşlər naziri Zöhrab Mnasakanyan, həm də Baş nazir Paşinyan Rusiya Federasiyası ilə real problemlər faktını tanıyırlar. Sergey Lavrovun Qarabağla bağlı sərt açıqlamaları, Paşinyanın Moskva səfərindən imtina edilməsi, qaz qiymətləri, Lavrovun Robert Köçəryanın həbsi məsələsini müzakirə etmək çağırışı, Ermənistan Respublikası parlamentinin spikeri Ararat Mirzoyan ilə Rusiya Federasiyası Dövlət Dumasının sədri Vyaçeslav Volodin arasında qalmaqallı telefon danışığı - bunların hamısı bariz nümunələrdir. Və son nəticə: Moskva İrəvana təzyiq göstərir".

Belə məlum olur ki, ötən müddət ərzində iki ölkənin münasibətləri xeyli gərginləşib. Bununla belə, tərəflər arasında gərginlik kontekstində qeyri-müəyyənlik davam edir. Bütün bunlar Ermənistana nə vəd edir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə kontekstdən yanaşdı: "Rusiyanın Ermənistandakı iqtidara qarşı münasibəti mənfidir.

*"Lavrovla ölkə rəsmilərinin danışıqları nəticəsiz olacaq"*

Çünki Paşinyan da anti-Rusiya siyasətini davam etdirir. Rusiyanın israrlı tələblərinə baxmayaraq, eks-prezident R.Köçəryanın həbsdə saxlanması, qazın qiymətlərində Ermənistana güzəşt edilməməsi gərginliyi artırır. Bütün bunlarla bağlı İrəvanda Moskvaya qarşı siyasi və mətbuat səviyyəsində ciddi tənqidlər səslənir. Hesab edirəm ki, Ermənistan və Rusiya arasında bu soyuq münasibətlərin davam etməsi Paşinyan hakimiyyətdə olduğu müddətdə davam edəcək. Paşinyandan sonra da Ermənistanda anti-Rusiya qüvvələr hakimiyyətə gələrsə, artıq Rusiya bu ölkədən əlini üzə bilər. Əlbəttə, Ermənistan daxilində Rusiyaya qarşı əks-təbliğata Paşinyan rəhbərlik edir. Düşünürəm ki, Lavrovla Ermənistan rəsmilərinin danışıqları nəticəsiz olacaq. Göründüyü kimi, Paşinyan və komandası anti-Rusiya ritorikasında qərarlıdır və bu səbəbdən ikitərəfli əlaqələrdə problemlər dərinləşir. Rusiya Ermənistanda bu kimi problemləri rəhbər tutub bu ölkəyə yardım etməyəcək".

***Vidadi ORDAHALLI***

# Ağstafa və İmişlinin yeni gənc icra başçıları çox ağır mirasın üstünə göndərildilər, onlara iki ən yaxşı uğur reseptini də Prezident özü göstərdi

**Yeni təyin olunmuş gənc icra başçılarına Prezidentin tapşırıq və tövsiyələrinin mahiyyətində mövcud vəziyyətdən və perspektivdən asılı olaraq dəyişikliklər görünməkdədir. Dəyişiklik, konkret olaraq, bir neçə istiqamətdə özünü göstərir.**

Prezidentin yeni başçılar təyin edilmiş iki rayonun sabiq başçılarının həbs edildiyini gənclərlə söhbətin lap əvvəlində xatırlatması təsadüf deyil. Yeni gənc başçılar bunu, xüsusilə rüşvət və korrupsiya faktlarına görə heç bir halda güzəştin edilməyəcəyinə aşkar işarə kimi qəbul etməlidirlər. Gənc icra başçılarının qarşısında qoyulan "rayonda rüşvətin kökünü kəsməlisiniz" kimi birmənalı tapşırıq şəxsi məsuliyyəti bir neçə qat gücləndirən təsirli motivdir.

Prezident iki rayonun başçısının həqiqətən çox ağır miras üstünə getdiklərini dəqiq ifadə etməklə metodoloji olaraq tamamilə doğru üsul seçdi. İki gənc icra başçısının sonradan "rayonda vəziyyətin belə ağır olduğunu bilmirdik" kimi uğursuz özünümüdafiə mövqeyi tutmasına əsas qalmayacaq .

Əslində İmişli və Ağstafanın yeni başçılarına görməli olduqları işlərə dair əsas yol xəritəsi təqdim edildi. Rüşvətdən uzaq durmaq, xalqın içinə getmək, kəndlərdə olmaq, sahibkarlara qanunsuz şəriklik hallarına son qoymaq, kasıbın boğazına şərik olmamaq, qeyri-neft sahələrinə diqqət yetirmək, ədalətli olmaq, suvarma su israfçılığından və "adamsızların" əkin sahələrini "yezidcəsinə yandırmaqdan" uzaq olmaq - başçılara Prezidentin Yol Xəritəsinin aydın detallarıdır.

Açıq deyək ki, indiyə qədər rayon, şəhər icra başçılarının fəaliyyətlərinin xarakterik əlaməti əsasən ictimaiyyətin üzərində "neqativ təcrübələri" sınaqdan çıxarmaqdan ibarət olub.Təbii ki, Prezident bunu bilir və buna görə də gənc başçılara neqativlərlə mübarizəyə ictimaiyyəti cəlb etməyi vacib amil kimi tövsiyə etdi. Yeni başçılar, ictimaiyyət üzərində neqativ təcrübələri sınaqdan çıxaran köhnə başçılardan fərqli olaraq, məhz ictimaiyyətlə birlikdə işləməli olacaqlar. Hər halda, məhz bu yeni üsul dəyişikliyini onlardan Prezident tələb etdi.

Hər şeyi rayonda vəziyyətin təhlilindən başlamaq Prezidentin ən konkret tövsiyələrindən biridir. Rayonlarda real vəziyyətin təhlili həm də əvvəlki başçıların fəaliyyətlərini qiymətləndirmək deməkdir.

İcra başçılarının həm vəzifə fəaliyyətində, həm də məişətdə nümunə olması həqiqətən çox vacib amildir. Prezident, məhz vacibliyini nəzərə alaraq, Ağstafa və İmişlinin yeni başçılarına bunu konkret şəkildə dedi. Əgər yeni başçılar da əvvəlkilər kimi kabinetində oturub öz biznesinin perspektivləri barədə dərin xəyallara dalacaqlarsa və ya kabinetdə "krasovka", "çəkələklə" işləyəcəklərsə, deməli Prezidentin konkret tövsiyəsini pozmuş olacaqlar. Ardını düşünmək artıq onların tale məsələsidir...

**Yeni icra başçılarına tələb və tövsiyələrin məzmununda edilmiş dəyişikliklərdən biri də rayona digər rayonlardan investisiya və sahibkarların cəlb edilməsi ilə bağlıdır. Prezident əslində bütün icra başçılarına və həmişə kənardan investisiya gətirməyi tapşırır.**

Ancaq koronavirusa qarşı sistemli mübarizəyə qədər Prezidentin bu istiqamətdə tapşırığı əsasən xarici ölkələrdən investisiya cəlb edilməsi ilə bağlı olurdu. Hazırkı şərait xaricdən rayonlara investisiya cəlbini müvəqqəti olaraq mümkünsüz etdiyi üçün sahibkarların və investisiyaların yalnız başqa rayonlardan cəlb edilməsi yeganə real mənbəyə çevrilir.



Yeni icra başçıları ilə Prezidentin görüşünün ən mühüm məqamlarından biri ümumiyyətlə yerli icra hakimiyyətləri sisteminin fəaliyyətsizliyi, səmərəsiz fəaliyyəti və nüfuzunu itirməsi ilə bağlıdır. Prezidentin dəqiq ifadə etdiyi fikirlərdən anlaşılan budur ki, yerli icra hakimiyyəti sistemi müəyyən sistemsizlik içindədir. Bu ağır neqativlər başqa rayonlarda da var və araşdırılır aztəminatlılar üçün həm binaların tikintisində, həm də mənzillər paylananda pul yığılır, işlərin 90 faizi Prezidentin sayəsində görülüb, icra başçıları daşı daş üstünə qoymayıb kimi ifadələr sadəcə tənqid jestləri deyil. Bu geniş məzmunlu ifadələr ölkədə yerli icra hakimiyyətləri susteminin və əsl başçı personasının itirilmiş nüfuzunun hökmən bərpasına yönəldilmiş çağırışlardır.

Doğrudur ki,yerli icra hakimiyyətləri sisteminin hazırkı nüfuz itkisi Aqstafa və İmişlinin yeni başçıları ilə heç bir halda əlaqəli deyil. Ancaq yeni başçılar heç olmasa öz rayonlarında icra hakimiyyətinin itirilmiş nüfuzunu bərpa edə bilməsələr, uğurlu nəticələrdən danışmaq mümkün olmayacaq.

Razılaşaq ki, hər iki rayonda icra hakimiyyətlərinin nüfuzu "yerlə bir olub". Rüşvətlə həbs edilmiş başçılardan sonra rayonda fərqli mirasın qalması heç mümkün də deyildi.

Yeni icra başçıları öz rayonlarında nüfuz etibarilə bələdiyyələrin səviyyəsinə düşmüş icra hakimiyyətlərini yerdən qaldırmaq kimi ağır bir vəzifənin icrası ilə üz-üzədirlər.

**Gənc başçıların vəzifəsi nə qədər ağır olsa da, işlərini xeyli asanlaşdıran faktorlar da var. Onlara ən asanlaşdırıcı və həlledici iki resepti də Prezident özü söylədi - Dövlət arxanızdadır və ictimaiyyəti bu işlərə geniş cəlb edin...**

**Əlamətlər göstərir ki, kadr dəyişikliklərindən sonra növbəti mərhələ kimi ölkədə yerli icra hakimiyyətlərinin özünü bir struktur olaraq dəyişdirmək, yeniləşdirmək və islah etmək ərəfəsindəyik...**

***Aydın QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan savaşla bağlı son xəbərdarlıqlar qarşısında... İrəvan beynəlxalq ictimaiyyəti aldatma cəhdlərinin bumeranq effektini görməyə başlayır...

**Ermənistan tərəfinin Şuşada təşkil etdiyi qondarma "andiçmə" ilə bağlı proses İrəvanın Dağlıq Qarabağ münaqişəsinin çözümündə siyasi həll yolundan hələ də uzaq olduğunu göstərir. Ekspertlər hesab edir ki, "andiçmə" şousu Qarabağ münaqişəsinin həllinə dair danışıqlara böyük zərbədir. Bu bir daha təsdiq edir ki, Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.**

Digər tərəfdən, bu fakt Ermənistanın sülh danışıqlarında beynəlxalq ictimaiyyəti aldatmağa yönələn cəhdlərində də özünü göstərir. Belə ki, düşmən danışıqlar aparmaq istədiyini desə də, zəbt edilmiş ərazilərdə atdığı addımlarla, əslində sülh prosesini ciddi sual altına alır. Hesab edilir ki, bu səbəbdən dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar Ermənistana qarşı daha ciddi təzyiq və sanksiyalar tətbiq etməklə onu beynəlxalq hüquq normalarına hörmətlə yanaşmağa məcbur etməlidir. Əks təqdirdə Azərbaycanın bunu güc yolu ilə etməsi qaçılmaz sayılır. Azərbaycan ordusunun düşməni lərzəyə salan son hərbi təlimləri fonunda bunu rusiyalı politoloq Vitali Arkov da xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Azərbaycan öz ərazisində, Ermənistanın bütün narahatlıqlarına rəğmən, hərbi təlim keçirmək hüququna malikdir:"Əgər bu beynəlxalq hüquq normalarına zidd deyilsə, Azərbaycan öz ərazisində hərbi təlim keçirmək üçün tam suveren hüquqlara malikdir. Mayın 18-dən başlayan hərbi təlimlər də heç bir beynəlxalq hüquq normalarına zidd deyil. Ermənistanın işğal altında saxladığı Azərbaycanın Dağlıq Qarabağ regionunda hərbi təlimlər keçirməsi isə beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasıdır. Bununla təkcə ATƏT-in Minsk Qrupu deyil, digər beynəlxalq təşkilatlar da məşğul olmalıdır. Əks təqdirdə Ermənistanın çox narahat olduğu və dünya ictimaiyyətinin istəmədiyi savaş başlanacaq. Çünki Azərbaycana başqa çıxış yolu qoyulmur".

Erməni siyasi ekspert Aram Amatuni də etiraf edir ki, Bakı savaşa başlasa, hadisələr Ermnənistan üçün proqnozlaşdırıla bilinməyən bir istiqamətdə cərəyan edə bilər:"Azərbaycan Qarabağ məsələsində mütləq şəkildə nəticəyə nail olmaq istəyir. Bunun üçün də lazımı hazırlıqlar aparır. Məsələn, Naxçıvanda və Qarabağ istiqamətində genişmiqyaslı hərbi təlimə başlayan Azərbaycan muxtar bölgəyə yeni raketlərin yerləşdirildiyini və İrəvanı hədəf aldığını elan edir. Bu açıqlama Qərb ekspert strukturları formatında verilib. Eyni zamanda, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Minsk Qrupu həmsədrləri ilə videokonfrans keçirib, həmin görüşdə nizamlama prosesində epidemiya aradan qaldırıldıqdan sonra hansı addımların atılmalı olduğu barədə danışıqlar aparıb. Həmsədrlər epidemiyanın zəifləməsi iki nazirin görüşünün təşkilindən danışıblar. Burada çox incə məqamlar var. Belə ki, Azərbaycan hərbi dillə diplomatik danışıqlarda iştirak edir. Bakının yurisdiksiyasında olan Naxçıvanın geosiyasi şantaj mənbəyinə çevrilə biləcəyi və ilk hədəfinin Ermənistan ola biləcəyi unikal bir vəziyyət yaranır".

Rusiyalı politoloq Yevgeni Mixaylov da qeyd edir ki, indiki halda Ermənistan yanlış addımlar atmaqla savaşa rəvac verir və bu zaman o, çox ehtiyat etdiyi Naxçıvan istiqamətindən də ciddi zərbə ala bilər: "Ermənistanın baş naziri Nikol Paşinyanın bu fonda son vaxtlardakı addımlarını başa düşmək çox çətindir. Belə ki, münaqişəni daha da qızışdırmaq istəməyən dövlət başçılarının tanınmamış qurumun başçılarının "andiçmə" mərasiminə gəlməyəcəkləri əvvəlcədən bəllidir. Eyni zamanda, Paşinyan bu hərəkətlərlə sülh prosesinə zərbə vurulduğunu da bilir. O halda Dağlıq Qarabağdakı qondarma qurumun başçısı Arayik Arutyunyanın "andiçmə" şousunu təşkil etməyə nə ehtiyac var idi?.

Fikrimcə, Nikol Paşinyan Qarabağdakı klanı yola gətirərək öz kürsüsünü qorumağa çalışır. Qarabağdakı dəstə Paşinyanla birgə gələn siyasətçilərin son vaxtlar Azərbaycan ərazilərini azad etməklə bağlı məsələni daha çox gündəmə gətirən Rusiya ilə qarşıdurmaya getdiyini görür. Paşinyan etdiyini edir və etdikləri də tam mənasızdır. Bakının hansısa mənfi addımına ümid edirsə, bu gülüncdür, çünki Bakıda Paşinyanın kim olduğunu artıq anlayırlar. Paşinyanın sona yaxınlaşdığı göz qabağındadır. Mövcud iqtisadi tənəzzül də, koronavirusa qarşı görülən tədbirlər də, Rusiya ilə münasibətlərin kəskin soyuması da xalqın narazılığına səbəb olur". Ekspertin fikrincə, Rusiyasız Paşinyan da, bütövlükdə Ermənistan da hər şeyini, o cümlədən dövlətçiliyi də itirəcək:"Bütün səyləri Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə yönəltməyin zəruri olduğu, Rusiyanın da mərhələli planı irəli sürdüyü bir vaxtda Paşinyan bütün bunları, o cümlədən Moskvanın mövqeyini də qulağardına vurur. Moskvada belə bir davranışı bəyənəcəkləri ağlabatan deyil, amma Paşinyanın, deyəsən, bunlar vecinə deyil. Moskva ona bir çox məsələlərdə səhv etdiyinə dair çoxdandır mesaj göndərib. Paşinyanın bu kimi hərəkətlərinin axırı yoxdur. Ermənistan dalana dirənib. Artıq çarəsiz qalan ətrafdakı qonşular hazırkı böhrandan çıxmağın yollarını göstərsələr də, Ermənistan "ulu və qədim" olduğuna inandığı üçün hamıya şərt qoya biləcəyini zənn edir. Amma səhv edirlər və zaman kimin haqlı olduğunu göstərəcək". Elə politoloq Vitali Arkov da bildirir ki, Paşinyan Bakı ilə yanaşı, Moskvanı da çox qəzəbləndirir:"Burada bir məsələ diqqəti cəlb edir ki, münaqişənin sülh yolu ilə çözümündə Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycana qaytarılması artıq həll olunmuş məsələdir. Hazırkı Ermənistan hakimiyyəti bu prosesə başlamaqdan imtina etməklə cəbhədə gərginliyi artırmaq məqsədi güdür". Onun sözlərinə görə, Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesində hazırda top İrəvanın tərəfindədir:"Məhz İrəvan, hazırda hakimiyyətdə olan Nikol Paşinyan və onun komandasının simasında bu məsələdə Ermənistan daha əvvəllər Minsk Qrupu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri icra etməkdən boyun qaçırır. Ermənistan tərəfi Dağlıq Qarabağ ətrafında olan işğal edilmiş rayonları Azərbaycana geri qaytarmaq prosesinə başlamaqdan imtina edir. Bu gün Dağlıq Qarabağın gələcək statusu dialoq predmetidir. Burada həm ikitərəfli formatda, həm də beynəlxalq vasitəçilər cəlb etməklə müxtəlif variantlar müzakirə oluna, danışıqlar aparılar bilər. Lakin işğal altındakı rayonların qaytarılması artıq həll olunmuş məsələdir. Ermənistan tərəfi bu addımı atmasa, danışıqların gələcəyi mümkün deyil. Ermənistanın üzərinə götürdüyü öhdəlikləri icra etməkdən imtina etməsi onu göstərir ki, hazırkı Paşinyan hökuməti konfrontasiyaya meyllidir. Təəssüflər olsun, ancaq güc nümayişi ilə külü soyutmaq mümkündür. Hazırkı Ermənistan rəhbərliyi qoşunların təmas xəttində və Azərbaycan-Ermənistan sərhədində müxtəlif təxribatlar törədərək Azərbaycan tərəfini cavab tədbirləri görməyə sövq edir". Ekspert hesab edir ki, bu durumda savaşın başlanması Ermənistanın tam məğlubiyyəti ilə nəticələnəcək. Bu fonda ən yaxşı yol BMT qətnamələrinə uyğun olaraq ərazilərin azad olunmasıdır: "Amma Ermənistan hələ də BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi ilə bağlı qəbul etdiyi 4 qətnaməni həyata keçirməkdən imtina edir. Azərbaycan ərazilərinin mərhələli şəkildə işğaldan azad olunması həmin tələblərdən yaranıb. Bu yaxınlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov da münaqişənin mərhələli həllindən danışdı. Ermənistan nəticəsi bəlli olan savaşı istəmirsə, tədricən torpaqlardan çıxmalıdır".

Ümumiyyətlə, faktdır ki, Ermənistanın, bölgənin təhlükəsizliyi Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən, ermənilərin qonşu dövlətlərə qarşı məntiqsiz iddialardan əl çəkməsindən keçir. Azərbaycan torpaqlarının azad edilməsi, həm də ermənilər üçün xeyir gətirəcək. Onda bu ölkə sponsorların və dünya ermənilərinin ianələrinə möhtac qalmayacaq. Qarabağ münaqişəsinin həlli bölgədə yeni, daha təhlükəsiz, etibarlı şərait yaradar. Bunu İrəvanda da gözəl anlayırlar. İndi Ermənistanda vəziyyət qeyri-müəyyəndir. Ermənistanda çıxan "İrates" qəzeti də yazır ki, Qarabağ münaqişəsinin davamı İrəvan ratmaqda davam edir:"Paşinyan keçmiş hakimiyyət nümayəndələrinin son qəpiyini müsadirə etməklə vəziyyətdən çıxmağa çalışır. Ermənistan baş nazirinin yaxın günlərdə keçmiş vəzifələrə qarşı yeni cinayət işi başladacağı gözlənir. Amma nə qədər ki, Ermənistan regionda transmilli layihələrin iştirakçısı olmayacaq, o qədər də iqtisadi problemlər ölkəni izləyəcək. Bu məsələdə Qarabağ münaqişəsinin Ermənistana ciddi əngəllər yaratdığı artıq açıq deyilməlidir. Üstəlik, münaqişə davam etdikcə müharibə təhlükəsi də həmişə qalacaq".

Burada düşmən mütləq nəzərə almalıdır ki, Azərbaycan tərəfi öz ərazisində daha bir erməni dövlətinin yaranmasına imkan və icazə verməyəcəyini dəfələrlə açıqlayıb. Bakı onu da bildirib ki, münaqişə BMT Nizamnaməsinin, Helsinki Yekun Aktının prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həll edilməli, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxmalı və bu torpaqlardan didərgin salınmış məcburi köçkünlər öz evlərinə geri qayıtmalıdır. Bunun üçün indiyə qədər diplomatiyadan istifadə edən Azərbaycan artıq beynəlxalq ekspertlərin Ermənistana xəbərdarlıq etdikləri kimi güc faktorunu da işə salmağa hazırdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Türkdilli dövlətlər arasında siyasi, iqtisadi inteqrasiyanın dərinləşməsi istiqamətində bu gün Azərbaycanın kifayət qədər vacib rol oynaması birmənalı həqiqətdir. Bu proses, xüsusən koronavirus pandemiyasının genişlənməkdə olduğu indiki dönəmdə özünü daha qabarıq formada büruzə verir.**

# Azərbaycan Türk dünyasını bir araya gətirən əsas dövlət mövqeyində... Üstəlik, Bakı-Tiflis-Qars...

Aprelin 10-da videokonfrans vasitəsilə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə zirvə görüşündən sonra isə proses daha aydın şəkildə nəzərə çarpır.

Xatırladaq ki, bu görüşün təşəbbüskarı qurumun fəaliyyətdə olan sədri kimi Prezident İlham Əliyev olub. Elə bundan sonra əməkdaşlığın konkret istiqamətləri üzrə nəticələr əldə edilməsi məqsədilə bir-birinin ardınca Türk Şurasının müxtəlif istiqamətli toplantıları baş tutub. Hadisələrin inkişaf axarı artıq Türk Şurasında inteqrasiyanın daha sürətlə dərinləşəcəyini göstərir. Xüsusən də iqtisadi müstəvidə. Yeri gəlmişkən qeyd edək ki, bu prosesdə yenə Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xətti indi xüsusi rol oynamağa başlayıb. Belə ki, bu xətt vasitəsilə türkdilli ölkələr arasında ticarət əlaqələri daha da dərinləşir. Bunu Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlu da xüsusi olaraq vurğulayır:"Koronavirus pandemiyasına qarşı görülən tədbirlər çərçivəsində xarici ticarətdə dəmir yolu ilə daşımalara tələb gündən-günə artır. Bu məqsədlə Bakı-Tiflis-Qars dəmir yolu xəttinin tutumunu 3 500 ton artırmaq üçün Türkiyə-Gürcüstan sərhədinin Türkiyə tərəfində yerləşən "Canbaz" stansiyasında konteyner ötürmə sistemi qurulub". Onun sözlərinə görə, pandemiya dövründə təhlükəsizliyin yüksək olması səbəbilə dəmiryol nəqliyyatı vasitəsilə yüklərin nəql edilməsinə tələbat artıb:"Xüsusilə Orta Asiya ilə xarici ticarət əlaqələrində BTQ-yə tələbdə artım müşahidə olunur". Yeri gəlmişkən qeyd edək ki, daha bir Orta Asiya ölkəsi yüklərin qəbul və ixracının Bakı-Tiflis-Qars vasitəsilə Azərbaycan üzərindən həyata keçirilməsinə start verib. Belə ki, Qırğızıstan yükdaşıyıcıları Türkiyəyə və əks istiqamətdə daşımaların yeni dəmiryol marşrutunu hazırlayıb və reallaşdırıb. Qırğızıstanın Ticarət-Sənaye Palatası bildirir ki, bu marşrut Azərbaycan ərazisindən keçir. Ticarət-Sənaye Palatasına nəqliyyat alt komitəsinin sədri Talant Matkerim bildirib ki, Türkiyənin "Arkas Logistik" şirkəti ilə razılaşma üzrə Oş şəhərində Türkiyədən gələn 40 konteyner qəbul edilib. Bu yük Gürcüstan və Azərbaycan ərazisindən, daha sonra dəniz yolu ilə Türkmənistana çatıb. Yük bu ölkədən dəmir yolu ilə Özbəkistandan keçərək Qırğızıstanın Oş şəhərinə gəlib:"Əvvəllər biz avtomobil yolu ilə yük nəql edirdik. Amma koronavirusla əlaqədar dövlət sərhədlərini keçməkdə problem yarandı və sahibkarlar zərər çəkməyə başladı. Multimodal daşımaların işə düşməsi həm yüklərin ləngiməsinin qarşısını alacaq, həm də tədarük həcmlərini artırmağa imkan verəcək".




Hazırda Azərbaycan Orta Asiya ölkələrinin Bakı-Tiflis-Qarsa cəlbi istiqamətində fəal iş aparır. Bu prosesdə "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə müəssisəsi olan "ADY Express" MMC də mühüm rol oynayır. "ADY Express"in direktoru Azad Qasımov məsələ ilə bağlı qeyd edir:"ADY Express" MMC Türkiyə ilə Mərkəzi Asiya arasında artan ticarət əlaqələrindən irəli gələn ticarət dövriyyəsinin artacağını proqnozlaşdıraraq bu bazarda fəaliyyətini genişləndirməyi planlaşdırır. Burada qeyd edim ki, buna hazırlıq işləri artıq 2019-cu ildən başlanıb. 2019-cu il dekabr ayında Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycanın təşəbbüsü ilə yaradılan beynəlxalq multimodal marşrutun (Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan- Türkiyə/Avropa) inkişafı üzrə 5 ölkənin - Azərbaycan, Gürcüstan, Qırğızıstan, Türkmənistan və Özbəkistanın dəmir yolları rəhbərlərinin birinci çoxtərəfli görüşü olub. Görüşdə bu dəhlizin inkişafı üzrə Əlaqələndirmə Komitəsi haqqında əsasnamənin yaradılması və qəbul edilməsi, marşrut üzrə vahid tariflərin hazırlanması və yüklərin daşınması şərtləri müzakirə olunub, müvafiq qərarlar qəbul edilib. Eyni zamanda, Mərkəzi Asiya regionunun ən böyük ölkəsi olan Qazaxıstanla da əlaqələrimizi dərinləşdiririk. Bu ölkənin Türkiyə, Avropa və Aralıq dənizi ölkələri ilə artan ticarət dövriyyəsindən yararlanaraq əlavə yüklərin cəlb olunmasına çalışırıq və artıq bu istiqamətdə də nailiyyətlərimiz var. Bununla yanaşı, şirkətimiz "Azərbaycan Dəmir Yolları" ilə birgə Uzaq Şərqi Asiya regionu ilə Avropa arasında yüklərin nəqlində iştirak etmək üçün ötən il başlanan danışıqları davam etdirərək yeni növ yüklərin Azərbaycan ərazisindən keçən beynəlxalq tranzit marşrutlara cəlb olunması üçün səylərini artıracaq".

Burada bir məqamı da qeyd edək ki, Uzaq Şərqi Asiya regionu və Avropa ilə yanaşı MDB-nin ən böyük iqtisadiyyatına malik Rusiyanın da Bakı-Tiflis-Qarsa marağı artır. Artıq məlumdur ki, hələ 2018-ci ilin iyun ayından Rusiya bu dəmir yolundan istifadə edir. O vaxt Rusiyadan ilk dəfə Qarsa taxılın məhz bu dəmir yolu vasitəsilə nəqlinə start verilib. Bunun ardınca Rusiyanın "Maqnitoqorsk Metallurgiya Kombinatı"nın məhsulunun da Bakı-Tiflis-Qarsla daşınmasına başlanıb. Yaxın zamanlarda şirkət tərəfindən daha 24 000 ton yükün BTQ vasitəsilə nəql edilməsi planlaşdırılır.

**Eləcə də Rusiyanın daha bir nəhəngi sayılan "Evraz Nijnetaqilskiy metallurqiçeskiy kombinat" şirkətinin Türkiyə bazarına çıxartdığı məhsulunun Bakı-Tiflis-Qars dəmir yolu ilə daşınmasına start verilib. Qeyd edək ki, "Evraz Nijnetaqilskiy metallurqiçeskiy kombinat"ı da dünyanın ən iri metallurgiya və dağ-mədən şirkətlərindən biridir. Polad istehsalına görə dünyada 15-ci yerdədir. BTQ dəmir yolunun yaratdığı imkanlar hesabına gələcəkdə təkcə Rusiyanın "Maqnitoqorsk Metallurgiya Kombinatı" və "Evraz Nijnetaqilskiy metallurqiçeskiy kombinat" şirkətlərinə məxsus ayda 100 min ton yükün daşınmasının mümkün olacağı proqnozlaşdırılır.**

***Ramil QULİYEV***

# Paşinyan Şuşadakı çıxışında olmayan erməni dövlət adları quraşdırdı

***Qasım Hacıyev:** "Baqratunilər, Arşakilər, Arşagitlər olan dövrdə və yerlərdə nə haylar vardı, nə də ermənilər, bu dövlətlərin onlara heç bir aidiyyəti yoxdur"*



*"...Paşinyanın və erməni tarixçilərinin uydurduğu bir məsələdir"*

**Ermənistanın Baş naziri Nikol Paşinyan yenə də tarixi saxtalaşdırma, yalan və uydurmalarla zəngin olan fikirlər səsləndirib. Məlum olduğu kimi, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda qondarma rejimin qanunsuz "prezident seçkisi" keçirilib.**

Mayın 21-də isə qondarma rejimin saxta "prezidentinin" "andiçmə mərasim"i şousu düzənlənib.

Beynəlxalq qurumların, dünya birliyinin tanımadığı qanunsuz "andiçmə mərasimi"nə qoşulan Paşinyan bu dəfə öz məruzəsində daha böyük saxtakarlığa yol verib. O, məruzəsində guya qədimdə olan "erməni dövlətlərinin - Van Krallığı , Yervanduni Krallığı, Artaşyan Krallığı, Arşakuni Krallığı, Baqratuni Krallığı, Kilikiya Krallığı, Birinci Ermənistan Respublikası"nın adlarını çəkib və ermənillərin "minilliklər boyu dövlətçilik ənənəsinə sahib olduğunu" deyib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyanın bu çıxışında yer alan əsassız iddialar da "andiçmə" şousunun içində göstərilən bir şoudur. Qədimdə heç bir erməni dövlətinin olmadığını qeyd edən Q.Hacıyevin sözlərinə görə, Paşinyan o qədər savadsızdır ki, nə danışdığını bilmir. "Əvvəlcə bu uydurmaların kökünün haradan gəldiyi barədə danışmaq istəyirəm. XVIII əsrin sonlarından ermənilər haradasa dövlət yaratmaq üçün şərait, imkan axtarırdılar. Gah İngiltərə Krallığına, gah Çar Rusiyasına müraciət edirdilər, onlardan kömək istəyirdilər. Onlara bu şəraiti Çar Rusiyası yaratdı və Cənubi Qafqazda dövlət yaratmaq üçün "işıq ucu" göstərdi. Ermənilər Çar Rusiyası tərəfindən Cənubi Qafqaza köçürüldükdən sonra onlara burada dövlət yaratmaq imkanları yarandı. Əsas məqsəd nə idi? Müsəlman dünyasında xristian abidələrinin, xristianlığın izi olan bir ərazi vardı, o da Dağlıq Qarabağ idi. Çünki bizim eranın əvvəllərində xristianlıq qəbul olunanda Albaniya dövləti xristianlığı dövlət dini kimi qəbul etmişdi. Bildiyiniz kimi, Alban xristian dövləti var idi. IV əsrdən VIII əsrin əvvəllərinə, yəni ərəblər gələnə qədər burada din xristianlıq idi. İslam dini yayıldıqdan sonra xristianlıq bu ərazilərdə məhdudlaşmışdı. Ona görə də xristianlıq ortadan çıxdı. Dövlətin tələb etdiyi islam dini yayıldı. Amma bu ərazilərdə xristian izləri - abidələri qaldı.

Ermənilərə gəldikdə, Paşinyanın sayıqladığı "dövlətlərlə" bağlı XX əsrin əvvəllərində Nikita Eminyan, Şahnazaryan, Patkanyan tərəfindən tapşırıq nəticəsində uydurulmuş tarix formalaşdırılmağa başlandı ki, guya onların bu ərazilərdə "qədim dövlətəri" olub. Ermənilər hansısa bir "mənbə" göstərirlərsə, bu ancaq ermənilərin uydurduğu, yaratdığı saxta mənbədir. Bundan sonra onlar çalışdılar ki, qondarma erməni tarixini Ermənistan tarixinə çevirsinlər. Cənubi Qafqazda "qədim erməni dövləti" olması barədə "faktlar" topladılar, "tarixi mənbələr axtarıb tapdılar", qondarma tarix uydurdular. Amma görək tarixi həqiqət necədir? Bu haylar Egey dənizinin sahillərindən, Balkanlardan Romalılar, Bizanslar dövründə indiki ön Asiya ərazilərinə gəlib çıxmış və gəlib Kilikiya ərazisində kiçik bir satraplıq yaratmışdılar. Sasanilərin dövrünə eramızdan əvvəl bir satraplıq yaratdılar və bu satraplığın adını "krallıq" qoydular. Həqiqət belədir ki, Kilikiya ərazisində kiçik bir satraplıq yaradıblar, amma onlar onun adını "Kilikiya çarlığı", "Kilikiya krallığı" kimi böyük adlarla adlandırırlar. Hətta iddia edirlər ki, həmin "krallığın" ətrafında üç dəniz arasında ərazi bu "dövlətə tabe olub". Ermənilər "Böyük Ermənistan" xəstəliyinə də burada tutulublar. Guya onlar o vaxt "Kilikiya krallığı", "Van çarlığı" yaradıblar. Hətta Sovet dövründə tapşırıqla Pyotrovski ilə bir kitab - "Van çarlığı" haqqında "Qızıl təpə" adlı əsər yazılıb. Onlar bu kitabda "Böyük Ermənistan" dövlətinin olduğunu göstərməyə çalışıblar. Əlbəttə, bu böyük saxtakarlıqdır. Tarixdə "Böyük Ermənistan" adlı dövlət olmayıb, bu, ermənilərin uydurmasıdır. "Yervanduni Krallığı", "Artaşyan Krallığı", "Arşakuni Krallığı", "Baqratuni Krallığı" məsələsinə gəlincə, bu da Paşinyanın və erməni tarixçilərinin uydurduğu bir məsələdir. İndi onlar bu barədə yazmağa başlayıblar. Amma o "dövlətlər"in harada yerləşdiyini deyə bilmirlər. Arşakitlərin, Arşagirin, Baqratunilərin isə ermənilərə, ümumiyyətlə, aidiyyəti yoxdur. "Arşakuni Krallığı" deməklə, onlar arşakiləri nəzərdə tuturlar. Arşakilər sülaləsi bizim albanların ulu əcdadlarıdır. Arşakilər sülaləsindən sonra da arşagirlərin, albanların, mehranilərin və sairin ermənilərə heç bir aidiyyəti yoxdur, onlar bizim xalqımızın mənşəyində duran xalqlardır. VII-VIII əsrlərdə ərəblərin gəlişi dövründə ərəblərə qarşı mübarizə aparanlar da, eyni zamanda, islam dinini qəbul edib onların bayrağı altında xilafətə xidmət edənlər də olub. Baqratunilərə gəlincə, onların adları

ərəb, fars mənbələrində çəkilir. Tarixçilərin apardıqları tədqiqatlara görə, Baqratuni yəhidi mənşəlidirlər, onların da ermənilərlə heç bir əlaqəsi yoxdur. Bu baxımdan, "Baqratuni krallığı"nın ermənilərlə heç bir bağlılığı mövcud olmayıb. Bunu da Paşinyan və tarixçilər uydurublar".

Q.Hacıyev vurğuladı ki, ermənilər-haylar gah hindistanlılarla, gah farslarla qohum olduqlarını iddia edirlər. Ermənilərin özlərini böyük xalqlara yamaq etmək iddiası ilə saxta tarix yaratdıqlarını deyən Q.Hacıyevin sözlərinə görə, onlar indi də Baqratunilərə calaq olmaq istəyirlər: "Ermənilər indi də Baqratunilərdən yapışıblar. Onlar Baqratunilər haqqında uydurmalar yaradırlar. Çünki Baqratunilər tarixdə var, onlar da o dövrdə mübarizə aparan, döyüşkən tayfalar olub. Ona görə də ermənilər özlərini onlara calamaq istəyirlər. Halbuki, Baqratunilər, Arşakilər, Arşagitlər olan dövrdə və yerlərdə nə haylar vardı, nə də ermənilər. Bu dövlətlərin onlara heç bir aidiyyəti yoxdur. Kilikiya satraplığından sonra da ermənilər bizim eranın əvvəllərindən XX əsrin əvvəllərinə qədər uzun əsrlər başqa dövlətlərin tərkibində qaraçı kimi yaşayaraq, heç bir dövlətə, dövlətçiliyə malik olmayıblar. Paşinyanın adlarını çəkdiyi dövlətlərin, ümumiyyətlə, ermənilərlə, haylarla əlaqəsi yoxdur. Görünür, Paşinyanın son dövrlər "tarixə müraciət" etməsi ondan irəli gəlir ki, Köçəryan, Sarkisyan dövründə onların tapşırığına əsasən, Arutunyan kimiləri ermənilərin bizim ərazilərdə "qədim dövlətlərinin olduğunu sübut etməyə" çalışsalar da, onların bu cəhdləri alınmadı, indi o, onların "səhvini düzəltməyə" çalışır. O vaxt Sarkisyan erməni jurnalistlərini Gorusa topladı və onlara tapşırıq verdi ki, "bütün bu ərazilər erməni torpağı olub, bunu yazıb bütün dünyaya yayın" . Amma onlar nə qədər cəhdlər etsələr də, ortaya bir nəticə çıxara bilmədilər. Əksinə, bununla öz babalarının yazdıqları uydurma tarixi inkar etməyə başladılar və özlərini biabır etdilər. İndi də Paşinyan belə mənasız, boş, cəfəng fikirləri "təzə fikir" hesab edib, onu yenidən canlandırır, bununla da özünü tarixin bilicisi hesab etməyə cəhd edir. Amma hesab edirəm ki, Paşinyan uydurma "qədim erməni dövlətləri"nin adlarını çəkməklə özünün siyasi uğursuzluğunu, Ermənistanı qara günə qoyduğunu ört-basdır etmək istəyir və belə populist çıxışlarla gündəmə gəlməyə cəhdlər edir. Bu cür çıxışları ilə fikri yayındırmaq üçün növbəti şou təqdim edir. O cümlədən, Azərbaycan tarixinə aid olan məsələləri tərpədir, bilir ki, bunlar mübahisəli fikirlərdir və Azərbaycan tarixçiləri, eyni zamanda, dünya tarixçiləri qarşısında öz iddialarını sübut etməsi çətindir, o, növbəti dəfə gülünc vəziyyətə düşə bilər. Dünya da Paşinyanın dediklərinin uydurma olduğunu bildiyi üçün onun fikirlərini qəbul etmir".

**Ermənilərin saxta tarixlərini Sovet dövründə bəzi rus alimlərinin qəbul etdiyini xatırladan Q.Hacıyev hesab edir ki, həmin dövrdə rusların təsiri altında olan Şimali Qafqazda, Orta Asiyada və sair yerlərdə belə "kitablar"a istinad edərək, bu fikirləri səsləndiriblər.**

*İradə SARIYEVA*

**Erməni faşizminin dünya miqyasında tanıdılması istiqamətində Azərbaycanın gördüyü işlər artıq öz müsbət nəticələrini verməkdədir. İndi təkcə MDB yox, dünya miqyasında ermənilərin faşizm sevgisinin ifşası istiqamətində Azərbaycanın gördüyü işlər Ermənistanda böyük narahatlıqla qarşılanır.**

# Azərbaycan bunu da bacardı: erməni faşizminin dünya miqyasında ifşası başladı

Xüsusən də Qərb ölkələrində bu istiqamətdə aparılan işlər indi Ermənistan üçün əsl şok effekti yaradır.

Xatırladaq ki, bu məsələ bir neçə gün əvvəl ABŞ-da diqqət mərkəzinə gəldi. Belə ki, Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkarlandı. Sənədə görə, 1945-ci il mayın 4-də ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frenk Huk erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meylləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim edib. Sözügedən məqalə ABŞ Konqresinin qeydiyyat kitabçasına daxil edilərək ABŞ hökuməti tərəfindən dərc edilib. Daşnakların nasizmə rəğbət bəslədiklərini vurğulayan məqalə onların ABŞ-ın Boston şəhərində nəşr edilən "Hairenik" qəzetinin 17 sentyabr 1936-cı il tarixli sayına istinad edərək, daşnakların hitlerizmi və faşizmi "bəşəriyyətə hədiyyə" və "Almaniya və İtaliyaya yeni həyat verən uğurlu sistemlər" hesab etdiklərini qeyd edir.

Sözügedən sənəddə, həmçinin, nasistlərə xidmət etmiş erməni Qaregin Njde haqda məlumat verilərək, onun erməni irqçiliyini təbliğ edən Tseqakronizm nəzəriyyəsinin əsasını qoyduğu və əsasən erməni gənclər arasında bu ideyanı yaydığı, onun Hitlerin irqçi ideyalarını tərənnüm etdiyi və bu ideyaları özü üçün əsas götürdüyü vurğulanır. Bunun ardınca yenə Azərbaycanın fəaliyyəti nəticəsində İsrailin daha bir neçə nüfuzlu media orqanında ermənilərin faşizmə rəğbətini özündə ehtiva edən yazılar işıq üzü gördü.



Son dövrlərdə diqqət həm də Avropa istiqamətinə yönəlib. Belə ki, Macarıstanın ingilisdilli populyar "Daily News Hungary" nəşrində Avropa ictimaiyyətini Ermənistanın indiki baş nazirinin babası Nikol Vartanoviç Paşinyanın sərgüzəştləri haqqında məlumatlandıran məqalə dərc edilib. Burada həm də nasizmin Ermənistanda çiçəklənməsinə diqqət yetirilir. "Daily News Hungary" nəşrində dərc edilmiş məqalə Avropaya həqiqətin pəncərəsi də sayılır. Elə bundan irəli gələrək, erməni lobbisinin güclü olduğu Fransada da bu məsələyə diqqət yetirilir. Fransanın "Causeur" qəzetində dərc olunmuş məqalədə İrəvanın faşizmə rəğbəti diqqət mərkəzində yer alır. Burada qeyd edilir ki, İkinci Dünya müharibəsinin sona çatması, eləcə də Müttəfiqlərin hitlerizm, nasizm və faşizm üzərində qələbəsinin qeyd edilməsi çoxsaylı əsərlərin işıq üzü görməsinə, tarixçilər aləmində ziddiyyətli fikirlərə və mübahisələrə səbəb olur: "Müharibənin bitməsindən 75 il ötsə də, acınacaqlı müharibə dövrünə dair minlərlə tədqiqat işləri aparılmasına baxmayaraq, tarixi gərginlik hələ də səngimir. Söhbət Qaregin Njdedən və onun İkinci Dünya müharibəsində mürəkkəb və dəyişkən yeri ilə bağlı mübahisələrdən gedir. Njde çağdaş Ermənistanın qurucularından biridir.

Njde Qaregin Ter-Harutunyan adı ilə bu gün iki ölkə arasında anklav olan Azərbaycanın Naxçıvan regionunda anadan olub. Naxçıvanın Azərbaycandan ayrılması da onun mənfur əməllərinin nəticələrindəndir. Erməni milli məsələsinin keşiyində duran və Osmanlı imperiyasının düşməni olan gənc Njde "düşmənimin düşməni mənim dostumdur" atalar sözünü özünə deviz götürür. 1920-1930-cu illərdə o, "böyük erməni millətinin bioloji və mənəvi mahiyyəti" kimi irqi görüşlərə söykənən millətçi fikirləri ilə tanındı. Bu fikirlər o dövrdə çox dəbdə olan "erməni köklərini qorumaq üçün bütün ermənilərin dini birliyi" anlayışı ilə tamamlandı. O, erməni dəyərlərinə, vətənə, erməni torpağına və əcdadlarına səcdə etməyin, qan dininin izahını verərək, erməni qanının saflığından danışır. Onun düşüncəsi qəbilənin, millətin, irqin dini mənasını əks etdirən "Tsegakronism" terminində sintez edilib. 1933-cü ildə ABŞ-da Ermənistan Gənclər Federasiyasına çevrilən gənclər hərəkatını ilhamlandıran ideyaları kağız üzərində qalmır. Bu şəxsin erməni xalqına dair xüsusi görüşləri Almaniya ilə yaxınlaşmağa imkan verdi. 1941-ci ilin iyununda Almaniya SSRİ-yə hücum edəndə Njde inanırdı ki, 1914 və 1917-ci illərdə olduğu kimi, tarix və taleyi onu bir daha millətinin yanına çağırır. SSRİ-nin düşməni onun dostu olur. 1942-ci ildə alman hökumətinin rəhbərliyi altında Avropa ermənilərini təmsil edən bir erməni milli komitəsi yaradılır. Njde bu məhdud komitənin üzvü olur. "Müstəqil Ermənistan" qəzetinin baş redaktorunun müavini olur. Reyxin Sovet İttifaqı üzərində qələbəsinin "böyük Ermənistan" xəyallarının reallaşmasına imkan verəcəyinə ümid edir.

1942-ci ildə erməni əsilli sovet hərbi əsirlərindən ibarət Vermaxt erməni legionu yaradılır. Bu döyüşçülərə Qafqazda, SSRİ-nin qərb cəbhəsində, Krımda və hətta Fransada rast gəlinir. Üçüncü Reyx ilə bu bərabərləşdirməyə qarşı olan erməni müxalifəti ortadan qaldırılır. 1944-cü ildə zərin atıldığını və uduzduğunu anlayan Njde son dönüşdə Stalinə qoşunlarının müsəlman Türkiyəsinə qarşı hərəkət etməsini təklif etməyə çalışır. Sovetlər onu bu barədə danışığa dəvət edir və həbs edirlər. 25 il həbs cəzasına məhkum olunan Njde 1955-ci ildə 69 yaşında vəfat etdiyi Vladimir həbsxanasında müharibə cinayətlərinə görə həbsdə qalır. Alman Kəşfiyyat Arxivi Njdenin alman ordusu ilə əsl erməni millətini tanımaq ümidi ilə işbirliyi etdiyini təsdiqləyir".

**Bütün bunlar erməni faşizmi və onun köklərindən artıq Qərb ictimaiyyətinin də xəbərdar olmağa başlamasının göstəricisidir. Şübhə yoxdur ki, bu istiqamətdə fəaliyyət daha da genişlənəcək. Bax, onda erməni faşizmi Azərbaycan və dünya ictimaiyyəti tərəfindən daha sərt zərbələr alacaq.**

***Nahid SALAYEV***

"Kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən, suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir". Bu sözləri Prezident İlham Əliyev Ağstafa və İmişli rayon icra hakimiyyətlərinin yeni başçılarını videoformatda qəbul edərkən bildirib.

# Rayonlarımızda "su ədalətsizliyi" - Prezident bəzi başçıların hətta din qaydalarına da uyğun olmayan əməllərini açdı...

## Pərviz Heydərov: "Bəzi məmurlar özlərinə yaxın olan sahibkarlara yardım edirlər, onların əkin sahəsinə su verirlər"



Dövlət başçısı qeyd edib ki, kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır: "Ona görə, müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məhsuldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən, suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi. Qeyd olunan sahədə də böyük pozuntular var".

Prezident deyib ki, keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları təqdim edilib: "Biz bunu demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldurlar və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma yerlərdə siz bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Çünki biz əgər ancaq bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Eyni zamanda, suyun ədalətli bölüşdürülməsi məsələsi də çox aktualdır. Çünki mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, ancaq kənar adamlara su verilmir. Bu, ədalətsizlikdir və buna son qoyulmalıdır".

*"...öz şəxsi məqsədləri naminə fəaliyyət göstərmələri nəticəsində həm suvarma, həm də digər sahələrdə problemlər yaşanır"*

Prezident İ.Əliyevin dediyi kimi, bu gün rayonlarda suvarma suyunun paylanılmasında ədalətsizlik var. Maraqlıdır, bu problem necə yaranıb və necə həll oluna bilər?

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bölgələrdə icra hakimiyyəti strukturlarına rəhbərlik edən şəxslərin öz şəxsi məqsədləri naminə fəaliyyət göstərmələri nəticəsində həm suvarma, həm də digər sahələrdə problemlər yaşanır: "Həmin şəxslər özlərinə yaxın dairələrdən istifadə edərək şəxsi qazanc güdüblər. Son zamanlar öz mənafeləri naminə çalışan icra başçılarına rəhbərlik edən şəxslərə qarşı sərt inzibati tədbirlər həyata keçirilir. Artıq bir neçə icra başçısı cəzalandırılıb".

Həmsöhbətimiz onu da əlavə etdi ki, yerli icra strukturlarına rəhbərlik edən şəxslərin fəaliyyəti düzgün təşkil olunarsa, aqrar sektorda yaşanan problemlər öz həllini tapar: "Məlumdur ki, bəzi məmurlar özlərinə yaxın olan sahibkarlara yardım edirlər. Onların əkin sahəsinə su verirlər. Belə olan halda, digər sahibkarlar su sarıdan problem yaşayırlar. Bu kimi hallara son qoyulması üçün sahibkarlıqla məşğul olanlara, vətəndaşlara əziyyət verən məmurlar sərt şəkildə cəzalandırılmalıdır".

**Günel CƏLİLOVA**

"Siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar". Bunu Prezident İlham Əliyev Ağstafa və İmişli rayonlarına yeni təyin olunan icra başçılarını videoformatda qəbul edərkən deyib.

*"Başçı sahibkarları inandırmalıdır ki, qoyduqları sərmayə batmayacaq"*

# Sahibkarları kənardan rayona cəlb etmək üçün başçılar nə etməlidir - Prezident tapşırığının asan üsulları var...

## Rəsul Cahangirli: "Bunun üçün, ilk növbədə, icra başçısı rayonda investisiya mühitini yaratmalıdır"

Ölkə başçısının sözlərinə görə, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır: "Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə, rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz".

Rayonlara sərmayənin cəlb olunması vacib məsələlərdən biridir. Çünki investisiyanın cəlbi rayonun inkişafı, iş yerlərinin açılması, boyük şəhərlərə axının azalması, əhalinin rifahının yüksəlməsi və s. deməkdir. Maraqlıdır, sahibkarların cəlb edilməsi ilə bağlı icra başçıları nə etməlidirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, yerli sahibkarların rayonlara sərmayə qoymalarını təmin etmək çətin məsələ deyil. Bunun üçün, ilk növbədə, icra başçısı rayonda investisiya mühitini yaratmalıdır: "Rayonda, ən başlıcası, investisiya mühiti yaxşı olmalıdır. Hesab edirəm ki, başlıca şərt bundan ibarətdir. Yəni investisiya mühiti yaxşı olmasa, icra başçısı nə qədər bacarıqlı olursa-olsun, ora kapital cəlb edə bilməyəcək.



Sərmayələrin cəlbində icra başçısının şəxsi keyfiyyətləri önəmli rol oynayır. İcra başçısı sahibkarları dinləməli, onlarla sistematik iş aparmalıdır. Ən nəhayət, onları inandırmalıdır ki, qoyduqları sərmayə batmayacaq. Belə olarsa, o zaman yerli sahibkarlar böyük həvəslə rayonun investisiya potensialını təhlil edərək, ona uyğun olaraq müxtəlif sahələrə sərmayə qoyacaqlar.

Bir çox icra başçısı bunu etmək əvəzinə, sahibkarları sıxışdırır, onlardan haqq tələb edir. Belə olan halda, təbii ki, sahibkarlar rayonlara sərmayə qoymaz. Ona görə də rayonlarda investisiya mühitinin sağlamlaşmasına zərurət var. Elə rayonlar var ki, ora investisiya baxımından çox cəlbedicidir. Bu kimi amillər də nəzərə alınmalıdır. Bütün bu və digər məsələlər həll edilsə, o zaman sahibkarlar rayonlara sərmayə qoymaqda maraqlı olacaqlar".

**Vidadi ORDAHALLI**

# Azərbaycanda sahibkarlar sinfi daha da güclənəcək, əgər icra başçıları imkan versə...

**Bu gün respublikamızda sahibkarlığın inkişafı mühüm dövlət siyasətinə çevrilib. Ölkəmizin uğurlarında sahibkarların rolunu xüsusi dəyərləndirən Prezident İlham Əliyev dəfələrlə onlara süni problemlərin yaradılmasının yolverilməzliyini qətiyyətlə bəyan edib.**

*"...bəzi məmurlar öz mənafelərini düşünürdülər..."*

## Ülvi Quliyev: *"Sahibkarlığın inkişafına mane olan məmurlar ciddi şəkildə cəzalandırılmalıdır"*



Danılmaz faktdır ki, ölkəmizdə sahibkarlığın inkişafına geniş imkanlar yaradılıb. Buna baxmayaraq, bəzi məmurlar sahibkarlıqla məşğul olanlara mane olurlar.

Prezident İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda keçirdiyi qəbulda bəzi icra başçılarının sahibkarlıqla məşğul olmaq istəyənlərə mane olduğunu deyib: "İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı ilk növbədə qeyri-neft sektorunun hesabına təmin ediləcək. Əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb, ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək istəyəndə, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol verməK olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizələr aparılır və ölkələr öz təkliflərini irəli sürür ki, investorları cəlb etsinlər. Ona görə də, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, məhz sizin rayonlarınıza onlar gəlib sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə, rayonların inkişafına töhfə versinlər. Bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cürə əziyyət verilir - buna yol verməK olmaz".

İcra başçıları sahibkarlıqla məşğul olmaq istəyənlərə mane olurlar. Onların gəlirlərinə şərik olurlar. Maraqlıdır, sahibkarlar icra başçılarının zülmündən necə qurtulmalıdır?

Millət vəkili Ülvi Quliyev qeyd etdi ki, korrupsioner, rüşvətxor, xalqın malına göz dikən, sahibkarlığın inkişafına mane olan məmurlar ciddi şəkildə cəzalandırılmalıdır: "Prezidentin indiyədək fəaliyyəti müddətində hər zaman çıxışlarında məmurlara xalqın xidmətçisi olmağı, ölkədə vətəndaş məmnunluğunun yaradılması, insanların sosial rifah halının təmin olunması, sahibkarlığın inkişaf etdirilməsi və bu istiqamətdə onlara hərtərəfli dəstək verilməsi ilə bağlı xüsusi tapşırıqları olub. Təəssüflər olsun ki, bəzi məmurlar verilən bu tövsiyə və tapşırıqları yerinə yetirib etimadı doğrultmaq, islahatların yerlərdə uğurla həyata keçirilməsinə nail olmaqla məşğul olmayıblar. Onlar tutduqları postdan ancaq öz şəxsi maraqları üçün istifadə edərək, ölkə başçısının yürütdüyü siyasətin əksinə çıxaraq, faktiki olaraq, xəyanət yolunu seçiblər".

*Günel CƏLİLOVA*

# "Ararat-73"-ə abidə, "Neftçi-66"-ya nə üçün abidə olmasın...

**Ermənistandakı iqtisadi vəziyyətin ağırlığı o həddə çatıb ki, artıq yerli əhali paytaxt İrəvandakı heykəlləri oğurlayıb satmağa meyllənib. Erməni KİV-nin verdiyi məlumata görə, İrəvandakı "Razdan" stadionu yaxınlığında "Ararat" futbol komandasının şərəfinə ucaldılan "Ararat-73" heykəl kompleksindən bəzi oyunçuların büstləri oğurlanıb.**

## Kənan Məstəliyev: *"Bu həm də bizim futbol ənənələrimizin yaşadılması, gələcək nəsillərə ötürülməsi yolunda yaxşı bir addım olardı"*




Hətta həmin büstləri tapan və harada olduğu barədə məlumat verən şəxslərə pul mükafatı da vəd olunur. Bizi bu məlumatın kriminal mahiyyəti deyil, ermənilərin öz futbol tarixlərinə verdikləri qiymət maraqlandırdı. Bəllidir ki, SSRİ dönəmində Azərbaycan futbolu və "Neftçi" komandasının uğurları, populyarlığı heç də "Ararat"dan az olmayıb. Erməni komandasının 1973-cü ildə az da olsa populyarlığı olubsa, bizim "Neftçi" bu uğura hələ 1966-cı ildə imza atıb və SSRİ çempionatında 3-cü yeri tutaraq, bürünc mükafata layiq görülüb. Belədirsə, bizdə niyə "Neftçi" klubuna belə bir abidə qoyulmasın?

Mövzu ilə bağlı tanınmış futbol mütəxəssisi Kənan Məstəliyevin fikirlərini öyrəndik. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, düşmənimiz olsalar da, "Ararat"ın 1973-cü ildə güclü komandaya malik olduğu faktdır:"Bu, idman tarixidir. Bəli, həmin ildə "Ararat" klubu SSRİ çempionu adına layiq görülüb. Komandanın uğurunu abidə ilə əbədiləşdirmək yaxşı fikirdi. Həmin dönəmdə bizim də parlaq futbolçularımız olub. Bir faktı da qeyd edim ki, 1966-cı ildə "Neftçi"nin tərkibində erməni əsilli futbolçular da oynayıb. Məsələn, bu xüsusda erməni əsilli Eduard Markarovun adını qeyd edə bilərik. Həmin komandanın abidə ilə əbədiləşdirilməsi yaxşı fikirdi. Ancaq elə etməliyik ki, bu, sadə əhalidə qıcıq da yaratmasın. Onda biz məcbur olacağıq ki, Marakarova da heykəl qoyaq. Bu da birmənalı qarşılanmaz. Ancaq düşünürəm ki, yalnız bir komandanın deyil, bütün Azərbaycan futbol tarixinin ən böyük uğurunu hansısa formada əbədiləşdirmək lazımdır. Ağlıma gələn ən gözəl variant, nəinki həmin zamanın, ümumiyyətlə bütün futbol tariximizin əfsanəsi olan Anatoli Banişevskiyə heykəlin qoyulmasıdır. Onun hələ də heykəli yoxdur. Bu heykəllə bütün o uğuru simvolizə etmək mümkündür. Belə bir heykəli indiki "Neftçi" klubunun bazasının və ya komandanın ev sahibliyi etdiyi hər hansı stadionlarımızın birinin qarşısında qoymaq olar. Bəlkə də bu bir uğur gətirər.

Heç də pis olmazdı. Bu həm də bizim futbol ənənələrimizin yaşadılması, gələcək nəsillərə ötürülməsi yolunda yaxşı bir addım olardı. Elə bir abidə işləmək olar ki, yalnız Banişevskinin simvolizə etməsin. Yəni onun simasında bütün komanda da yad edilsin. Bunun gənc futbolçularımızın motivasiyasına da müsbət təsiri olar. Hesab edirəm ki, əlaqədar qurumlarımız qarşısında belə tələblə çıxış edilməlidir. Ümidvaram ki, təşəbbüs müsbət dəyərləndirilər".

*Məhəmmədəli QƏRİBLİ*

# Mədəniyyət Nazirliyinin daha bir qəbahəti - deportasiya və soyqırım tarixi hələ ekranlaşdırılmayıb...

*Şamil Əliyev: "Mədəniyyət Nazirliyində bir sıra proseslər, dəyişikliklər baş verib, yəqin ki, bundan sonra mövzulara müraciət ediləcək"*

**XX əsrdə bir neçə dəfə ermənilər tərəfindən deportasiya və soyqırıma məruz qalan Azərbaycan türklərinin faciələri ilə bağlı kifayət qədər tarixi-elmi araşdırmalar aparılsa da, lakin indiyə qədər bu mövzuda nə bir sanballı əsər yazılıb, nə də film çəkilib.**

Ortada yaranan boşluqdan və sükutdan isə bizə qarşı soyqırım və deportasiya törədən ermənilər sui-istifadə edərək, qondarma "erməni soyqırımı" haqqında bədii filmlər çəkir və bu filmlərdə özlərini "soyqırıma" məruz qalan xalq adlandırır, dünyanı yalançı göz yaşlarına inandırmaq istəyirlər. Gizlin deyil, bu işdə onlara maddi cəhətdən xaricdəki erməni diaspor təşkilatları, yaradıcılıq və texniki baxımdan isə Rusiyada və başqa ölkələrdəki erməni kino qurumları, şirkətləri dəstək verirlər.

Haqlı tərəf və soyqırımlara, deportasiyalara məruz qalmış xalq olduğumuz halda, hələ də kinomuz bu istiqamətdə ortaya fundamental bir bədii ekran işi qoymayıb. Azərbaycan Prezidenti dəfələrlə çıxışlarında Azərbaycanın milli kinosunun formalaşdırılması, Azərbaycan məfkurəsi, azərbaycançılıq ideologiyası əsasında filmlər çəkilməsini, eləcə də çəkilən filmlərdə deportasiya və soyqırımlar tariximizi işıqlandırmağı kinematoqraflara tövsiyə edib. Amma kinoya rəhbərlik edən məmurlar dövlətin bu sahəyə ayırdığı vəsaiti mənasız, çürük ideyalar üzərində köklənən layihələrin gerçəkləşdirilməsinə yönəldiblər. Halbuki, o vəsaitə heç olmasa, ən azı, soyqırımlar və deportasiyalar tariximizlə bağlı bir film çəkmək və onu bütün dünyaya yaymaq olardı. Əlbəttə, indiyə qədər bu istiqamətdə fundamental bir bədii filmin meydana gəlməməsinin məsuliyyətini birbaşa Mədəniyyət Nazirliyinin aidiyyəti sektoru daşıyır. Hətta mövzu ilə bağlı onlara ssenari təqdim edən şəxslərin də layihələrini geri çevirirlər. Nəticə isə bizim zərərimizə olur.

Qeyd edək ki, bir çox kino mütəxəssisi dəfələrlə açıq və örtülü şəkildə bu kimi mövzuların işıqlandırılmasına nazirliyin aidiyyəti qurumunun maneçilik törətdiyini deyib. Çünki belə bir layihə kifayət qədər vəsait tələb edir və o vəsaitin də hamısı filmə xərclənsə, onlar üçün yeyinti yeri qalmayacaq. Odur ki, başdan etmək, get-gələ salmaq prinsipini rəhbət tutan kino məmurları filmlərin çəkilməsinə əngəl olublar. Hər halda, bu barədə iddialar var və aparılan araşdırmalar bu məsələnin qaranlıq tərəfinə işıq salacaq.

Prezident İlham Əliyevin sərəncamı ilə Əbülfəs Qarayevin mədəniyyət naziri vəzifəsindən azad edilməsindən sonra nazirlikdə tamamilə yeni proseslərin başlandığı hiss olunur.

Qayıdaq mövzuya. Azərbaycan xalqının erməni daşnakları tərəfindən soyqırımlara və deportasiyalara məruz qalması faktının bədii kinoda hansı səbəbdən işıqlandırılmadığını tanınmış kinorejissor-ssenarist Şamil Əliyevlə müzakirə etdik.

Ş.Əliyev qeyd etdi ki, bu mövzuda cəmi bir-iki bədii film çəkilib və həmin filmlər isə üzəridə deyil. "Aydındır ki, dövlət müstəqilliyimizə qədər bu mövzunun işıqlandırılması Sovet İttifaqı Kommunist Partiyası tərəfindən qadağan idi. Yəni bu məsələni yazıb, çəkmək olmazdı. Bilirsiniz ki, dövlət müstəqilliyimizdən sonra bu mövzuda bir neçə sənədli film çəkilib. Hətta bu mövzuda çəkilən bir-iki bədii filmimiz də var. 1993-cü ildə çəkilən "Haray" filmini qeyd edə bilərəm. Səhv etmirəmsə, həmin film Eldəniz Quliyevin və Nüşabə Məmmədovanın ssenarisi əsasında teatr rejissoru olan Oruc Qurbanov tərəfindən ekranlaşdırılmışdı. Oruc Qurbanov teatr rejissorudur və bu onun filmdə ilk cəhdləri idi. Böyük kino nümunəsi olmasa da, bu cəhdlər var idi".

Ş.Əliyevin sözlərinə görə, Azərbaycandan dünya miqyasına çıxan filmlər çox az olub. O, "Əli və Nino" filmini, qismən də olsa, haqqında danışdığımız mövzuya toxunan bir film hesab edir. "O, dünya miqyasına çıxdı. Çünki o filmin Leyla Əliyeva kimi icraçı prodüsseri vardı. Bu filmdə Hollivudun ünlü sənətkarları işləmişdi. Kristofer Hempton həm prodüsser, həm də ssenari müəllifi idi. Burada Hollivudun bir çox aktyoru bu filmdə iştirak edib. Bu filmdə keçən əsrin əvvəllərində baş verən bir çox hadisəyə müəyyən qədər də olsa toxunulub. Bu film Avropa Parlamentində, Amerikada, "Sundance" Beynəlxalq Film Festivalında və digər yerlərdə çox uğurla nümayiş olundu. Film bütün kino qaydalarına uyğun çəkilib və mövcud olan şəraitdə kino estetikasına uyğun filmdir. Bundan başqa, Azərbaycanda çəkilən bu və ya digər filmlərdə, epizodik də olsa, bu məsələlərə toxunulmağa çalışılıb. Azərbaycanlıların ermənilər tərəfindən soyqırımlara və deportasiyalara məruz qalması ilə bağlı yeni filmlərin çəkilməsinə ehtiyac var. Bilirsiniz ki, son vaxtlar Mədəniyyət Nazirliyində bir sıra proseslər, dəyişikliklər baş verib, yəqin ki, bundan sonra mövzulara müraciət ediləcək, yeni mövzular seçiləcək. Amma indiki zamanda bu mövzu ilə bağlı istehsalatda film yoxdur. İndən sonra yəqin ki, nazirlikdə yeni filmlər, mövzular meydana çıxacaq. Onda bəlkə bu mövzuya da toxunula".



*"...bu mövzuda bədii filmlər çəkilməli və beynəlxalq ictimaiyyətə çatdırılmalıdır"*

Bu gün Azərbaycanın AVROMAŞ-ın üzvü olmasının vacib olduğunu deyən Ş.Əliyevin sözlərinə görə, bundan sonra Azərbaycan kinosunun dünyaya yolu açılacaq. "Doğru deyirsiniz, soyqırımlar və deportasiyalar mövzusunda bir deyil, bir neçə bədii filmin çəkilməsinə ehtiyac var. Biz bu işə peşəkarları cəlb edərək, bu mövzuda filmlər çəkməliyik. Gəlin açıq danışaq, kino sahəsində təkcə problem bununla bağlı deyil, çox problem üst-üstə yığılıb qalıb. Gedənin arxasınca danışmıram. Amma, faktiki olaraq, kino sahəsində son vaxtlara qədər elə məqamlar olub ki, heç vaxt peşəkarlara arxalanmamışıq. Biz peşəkarlara arxalanmalıyıq və bu prosesə beynəlxalq təşkilatları da, kino kompaniyalarını da cəlb etməliyik. Zaman-zaman bu mövzuda filmlər meydana gəlməlidir. Deportasiyalar və soyqırımlar tariximizlə bağlı mövzular qabardılmalı, bu mövzuda bədii filmlər çəkilməli və beynəlxalq ictimaiyyətə çatdırılmalıdır" - deyə Ş.Əliyev bildirdi.

***İradə SARIYEVA***

№ 84 (4215) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

23 MAY 2020-ci il

www.baki-xeber.com



# İflicә qarşı Erikson metodu...

**Erikson Milton tarixә fikrin, iradәnin gücü ilә iflicә vә şikәstliyә qalib gәlәn insan kimi düşüb. O, ABŞ-da kasıb ailәdә doğulmuşdu. Uşaqlıqda yaşıdlarından әqli baxımdan geri qalırdı:**

5 yaşına kimi danışmamışdı, rәnglәri ayırd edә bilmirdi, kәkәlәyirdi vә oxuya bilmirdi. 17 yaşı olanda ağır infeksion xәstәlik olan polimielit sәbәbindәn bütün bәdәni iflic oldu, onurğa sinirlәri öldü vә o, әlil arabasına mәhkum oldu. Günün çoxunu ya yataqda, ya da çarpayının yanında qoyulmuş yellәncәk kresloda keçirirdi. Bir gün bu kresloda 3 saat oturduqdan sonra ailә üzvlәrini sәslәsә dә, heç kim hay vermәdi. Görünür, ata-anası harasa getmişdi vә onu çarpayıya qoymağı unutmuşdular. O, hәyәcandan gәrildi vә kreslonu yellәtdi. Özü sәrbәst olaraq bu kreslonu hәrәkәt etdirә bilmәzdi. Amma fakt bu idi ki, kreslo yellәndi. Erikson kreslonu beyni vә fikri ilә hәrәkәt etdirdiyinin fәrqinә vardı. O zaman Milton kreslonun daha çox vә güclü yellәnmәsini beynindә canlandırdı, hәqiqәtәn dә elә oldu, kreslo möhkәm yırğalanmağa başladı. Heyif ki, evdә bunu görәn olmadı. Milton ideamotor hәrәkәtin varlığını özü üçün kәşf etdi. Bu zaman sinir uclarında impulslar o hәrәkәt barәdә beyindә fikir yaranan kimi әmәlә gәlir. "Medicina.az" bildirir ki, Erikson öz üzәrindә işlәmәyә başladı. Günlәrlә әlil olmamışdan әvvәl etdiyi qaçmaq, üzmәk, tullanmaq, nәsә qaldırmaq kimi hәrәkәtlәri xatırlayıb, onları hiss etmәyә vә bütün fikrini bir hәrәkәtdә fokuslayıb, onları canlandırmağa vә hәmin hәrәkәtin impulslarını ötürmәyә başladı. Aylar әrzindә bu, onda alındı vә Milton ayağa qalxdı. O, bütün Amerikanı heyrәtә gәtirdi. Bütün hәrәkәtini, sinir ötürücülüyünü bәrpa edәrәk, hәtta bir neçә ildәn sonra su kanalı ilә üzәrәk bir neçә ştatı keçdi. Eriksonun özündә tәtbiq etdiyi bu metod psixoterapiyada yeni istiqamәt vә metodika açdı, onu Erikson hipnozu adlandırdılar. Medicina.az xәbәr verir ki, sonradan Milton tibbi tәhsil alaraq, XX әsrin әn dahi psixoterapevtlәrindәn birinә çevrilir.

Onun metodu onlarla insanı әlilliklәrdәn xilas edib. "Erikson hipnozu klassik hipnozdan fәrqlәnir. Terapevt seans zamanı xәstәyә göstәriş, әmr vә tәlimat vermir, sadәcә, ona xüsusi trans vәziyyәtә daxil olmağa kömәk edir. Bu vәziyyәtdә xәstә öz diqqәtini xarici alәmdәn ayırıb daxilinә fokuslayır, bir müddәt әtraf reallıqdan tәcrid olub, beynindә hәrәkәtlәr vә hissәlәri canlandırır". Erikson trans vәziyyәti müalicәvi hesab edir. İnsan trans halında olanda ona müәyyәn psixoloji yardımı vә texnikaları tәtbiq etsәk, onun effekti maksimal artır. Yalnız trans vәziyyәtindә real hәyatda mümkünsüz vә qeyri-real görünәnlәr mümkün vә әlçatan görünür. Transdan çıxdıqdan sonra beyindәki pozitiv dәyişikliklәr uzun müddәt qorunur vә insana real tәsir edir. Bu, reallıqda çatışmayanları hәll etmәk vә reallığı istәyinә uyğun idarә etmәk üçün әn güclü alәtdir.

## "Bakcell"dәn Azәrbaycanın әn sürәtli mobil şәbәkәsindә 50 GB trafiki cәmi 30 manata

**Abunәçilәrin irihәcmli internet trafikinә olan tәlәbatını ödәmәk mәqsәdilә "Bakcell" şirkәti cәmi 30 manata yeni 50 GB internet paketini tәqdim edir.**

Bu tәklif sayәsindә "Bakcell" öz abunәçilәrinә Azәrbaycanın әn üstün vә әn sürәtli mobil şәbәkәsinin tam potensialından istifadә etmәk imkanı qazandırır. İrihәcmli internet paketi yüksәk keyfiyyәtli videokontentә baxmaq vә ya yüklәmәk, sosial media vә әylәncә proqramlarına ani giriş edә bilmәk, HD keyfiyyәtindә canlı yayımlanan idman vә musiqi verilişlәrinә baxmaq vә yeni nәsil mürәkkәb mobil tәtbiqetmәlәrdәn istifadә etmәk istәyәn abunәçilәr üçün çox әlverişlidir. "Müasir müştәri tәcrübәsi daha sürәtli vә keyfiyyәtli mobil internet bağlantısı, elәcә dә daha böyük trafik hәcmi tәlәb edir. Biz abunәçilәrimizә bütün ölkә әrazisindә videoyayım xidmәtlәri, sosial şәbәkәlәr vә digәr yüksәk keyfiyyәtli kontentә yanaşı, әn müasir telekommunikasiya xidmәtlәrindәn istifadә imkanı tәqdim etmәkdәn mәmnunuq. Azәrbaycanın әn üstün mobil şәbәkәsi ilә yanaşı, üstün müştәri tәcrübәsini tәmin etmәk mәqsәdilә, tәklif etdiyimiz xidmәt vә mәhsulları tәkmillәşdirilmәsini davam etdirәcәyik", - deyә "Bakcell" şirkәtinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

50 GB internet paketini "Mәnim Bakcellim" tәtbiqetmәsi vasitәsilә vә ya xüsusi kodu yığmaqla әldә etmәk olar. Daha әtraflı mәlumat üçün https://www.bakcell.com/az/50gb-bundle sәhifәsini ziyarәt edin. "Bakcell" şirkәti mәhsul vә xidmәtlәrinin keyfiyyәtini müntәzәm qaydada artırmaqla abunәçilәrinә daha yaxşı müştәri tәcrübәsi tәqdim edәcәk. Ölkәdә әn geniş әhatә dairәsinә malik olan, tanınmış OOKLA şirkәti tәrәfindәn ardıcıl olaraq 3 dәfә "Azәrbaycanın әn sürәtli mobil şәbәkәsi" adına layiq görülmüş "Bakcell" şәbәkәsi bunun üçün bütün texniki imkanları tәmin edir.

## Elan

Oğuz rayonu, Padar kәnd sakini Orucova Әlәmgül Hümbәt qızının vә Orucova Hüsniyyә Әhmәd qızının adına verilmiş JN: 0008 saylı torpaga mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır (kod: 40506018).

Umudov Asif Ağasәrkәr oğlunun adına, Bakı şәhәri, Sәbail rayonu, Badamdar qәsәbәsi, T.Mәmmәdov küçәsi, ev 3, mәnzil 9 ünvanının çıxarışı vә texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Ziyәddin Nәsib oğlunun adına, Bakı şәhәri, Binәqәdi rayonu, Bilәcәri qәsәbәsi, mәhәllә 5057-68, ev 10, mәnzil 66 ünvanının çıxarışı (seriya MA0388493) itdiyi üçün etibarsız sayılır.

28 iyun 2020-ci il tarixdә, saat 11-00-da " Şәki Tütün Kombinatı" Açıq Sәhmdar Cәmiyyәtinin sәhmdarlarının ümumi yığıncağı keçirilәcәk.

İclasın gündәliyindә duran mәsәlәlәr:

1. "Şәki Tütün Kombinatı" ASC-nin 2019-cu ilin maliyyә-tәsәrrüfat fәaliyyәtinin yekunlarına dair hesabat. 2. Tәşkilatı mәsәlә. 3. Digәr mәsәlәlәr.

Ümumi yığıncaqda bütün sәhmdarların iştirakı vacibdir.

**Cәmiyyәtin idarә heyәtinin sәdri L.Mustafayev**





**Qoç** - Çәtin, amma labüd qәrar qәbul etmәyin vaxtı çatıb. Problemin hәllini tәxirә salmaq, üstün vә zәif cәhәtlәri tәhlil etmәk üçün zamana ehtiyacınız var. Vaxt isә yoxdur, aktiv hәrәkәt etmәk gәrәkdir.



**Buğa** - Sakit, soyuqqanlı qalmaq asan deyil. Situasiya birmәnalı deyil. Hadisәlәrin hansı mәcrada inkişaf edәcәyini düşünüb ehtimalları çeşidlәdikcә daha çox narahat olur, nigaran qalırsınız.



**Әkizlәr** - Fәal, qәtiyyәtli olun. Qarşınıza qoyduğunuz mәqsәdlәrә çatmaq üçün rasional davranın. Pullarınızın qәdrini bilin, amma simiclik dә etmәyin. İşgüzar danışıqlar yaxşı alınacaq. Sәrfәli sövdәlәşmәyә nail ola bilәrsiniz.



**Xәrçәng** - Planlar quranda bilin ki, mümkün qәdәr ehtiyatlı vә sәrvaxt davranmaq gәrәkdir. Bir tәlәsik qәrar, sәthi açıqlama hәr şeyi korlaya bilәr. Pullarınızla risk etmәyin, şübhәli anlaşmalar vә ya razılaşmalardan boyun qaçırın.



**Şir** - Gәrgin, çәtin, amma maraqlı gündür. Yeni işlәrә cәsarәtlә başlayın. Onlar ilk baxışdan göründüyü qәdәr çәtin deyillәr. Birgә fәaliyyәtin tәkan verdiyi irәlilәyiş sizi tәәccüblәndirәcәk.



**Qız** - Bu gün başladığınız işlәrin әksәriyyәtindә uğura nail ola bilәrsiniz. Yeni bilik, tәcrübә әldә etmәyә imkan verәn işlәrә xüsusi fikir verin. Dünyagörüşünüzü artırmağa, karınıza gәlә bilәcәk mәlumatları әldә etmәyә çalışın.



**Tәrәzi** - Sәhәr saatlarından etibarәn aktiv, enerjili olun. Yaşananları xatırlayın, yol verdiyiniz sәhvlәri vә yanlışlıqları tәhlil edin. Özünüzә qarşı hәddәn ziyadә sәrt tәnqidi mövqe tutmayın.



**Әqrәb** - Sәhәr saatlarından etibarәn kiçik anlaşılmazlıqlar olacaq. Ciddi problemlәrin yaranacağını düşünәrәk narahat olmayın. Yaşamın bir çox sahәlәrindә tәşәbbüslә çıxış etmәyin zamanıdır.



**Oxatan** - Maliyyә problemlәri yaranacaq. Әvvәlcәdәn nәzәrdә tutduğunuz alış-verişә pul çatacaq. Amma spontan alış-verişdәn imtina edin. Bu durum sizi pәrişan edә bilәr.



**Oğlaq** - Günün ilk yarısında sәhhәtinizdә problemlәr yarana bilәr. Orqanizminizi sınağa çәkmәyin. Tәcili saydığınız bәzi işlәri tәxirә salın vә ya başqasına hәvalә edin. Әsәblәşmәyin, aqressiv olmayın.



**Dolça** - Qәliz dövrdür. Çәtin işlәrin sayı artır. Bu problemlәrin öhdәsindәn müstәqil şәkildә gәlmәlisiniz. Onlar indiyәdәk sizә dәfәlәrlә vәd verәrәk çәtin anda sizә yardım edәcәklәrini desәlәr dә, belә olmayacaq.



**Balıqlar** - Yaxınlarınızla münaqişә, ailәdә mübahisә ola bilәr. Buna yol vermәmәk üçün tәmkinli olun, aqressiv davranmayın. Yanlış hesab etdiyiniz әmәllәrә görә yanınızdakı insanları sәrt tәnqid etmәyin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## 2030-cu ildә 36 gün oruc tutulacaq

**2030-cu ildә müsәlmanlar 36 gün oruc tutacaq. "Medicina.az" bildirir ki, Sәudiyyә Әrәbistanının Әl-Qasim Universitetindә iqlim elmlәri professoru Abdullah әl-Musand astronomik proqnozlara әsasәn belә bir iddia ilә çıxış edib.**

Onun sosial şәbәkәdә paylaşdığı şәrhdәn belә mәlum olur ki, Ramazan ayı 2030-cu ildә iki dәfә başlayacaq: yanvarın 5-dә vә dekabrın 26-da. O bunun sәbәbi kimi Hicri-qәmәri tәqvimin Günәş tәqvimindәn 11 gün daha qısa olması ilә izah edib. "2030-cu ildә Ramazan ayı iki dәfә başlayacaq.

Birinci dәfә Hicri-qәmәri tәqvimi ilә 1451-ci ildәdir ki, bu da Miladi tәqvimlә 2030-cu ilin yanvarın 5-nә düşür. Elә hәmin il dekabrın 25-dә Hicri-qәmәri tәqvimi ilә növbәti Ramazan ayı başlayacaq. 1452-ci ilin Ramazan ayının davamı Miladi tәqvimlә 2031-ci ildә olacaq".

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.